# "AKINCI"LAR SİLAHLANMAYA QƏBUL EDİLDİ

Fevralın 9-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləyiblər. Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev yeni inşa edilmiş anqar komplekslərinə baxış keçirib. Anqarlar müxtəlif tipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub. Prezident burada "Akıncı" hücum PUA-sı və aviabombaları ilə də tanış olub.



SƏHİFƏ 2-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

10 FEVRAL ŞƏNBƏ 2024 I 05 (4156)

Qiyməti - 40 qəpik

www.kaspi.az




## YASTIQ ALTINDAN BANKLARA

Vətəndaşların banklarda milli valyutada olan əmanətlərinin məbləği bir il ərzində 16,3 faiz artıb. Ekspertlər bu rəqəmi kifayət qədər ciddi göstərici hesab edir və bunu banklara olan inamın artması kimi səciyyələndirirlər. Vətəndaşların banklardakı əmanətlərinin faizlərinin gəlir vergisindən azad olunması bank depozitlərinin həcminin artmasına səbəb olub.

SƏHİFƏ 6-da



## SIĞORTA ŞİRKƏTLƏRİNİN YARATDIĞI PROBLEMLƏR

Bu gün elə sığorta şirkətləri var ki, könüllü şəkildə avtomobillərin icbari sığortasından imtina ediblər. Bir sıra şirkətlər də bu sıraya qoşulmağı düşünürlər. Hətta satışları dayandıranlar da mövcuddur. Sürücülər bildirirlər ki, sığorta şirkətləri kiçik mühərrikli avtomobillərin sığortasına həvəs göstərmirlər. Müxtəlif maneələr yaradırlar.

SƏHİFƏ 5-də

## XALQ PREZİDENTİNƏ NÖVBƏTİ DƏFƏ BÖYÜK ETİMAD GÖSTƏRDİ

# TAM VƏ BİRMƏNALI QƏLƏBƏ



Növbədənkənar prezident seçkiləri ilə xalqımız öz lideri İlham Əliyevə olan etimadını bir daha yenilədi. Xalq qalib liderinin arxasında bir yumruq kimi birləşdiyini bütün dünyaya nümayiş etdirdi.

### XANKƏNDİDƏ İLK AZAD SEÇKİ PROSESİ

Növbədənkənar seçkilərdə ən çox diqqəti cəlb edən məqamlardan biri Prezident İlham Əliyevin səsvermə hüququndan Xankəndidə istifadə etməsi oldu. Bu addım həm siyasi, həm də mənəvi mahiyyət daşıyır. İllərlə bu şəhər terror, separatizm yuvası olaraq Azərbaycan dövlətinin milli maraqlarını, suverenliyini təhdid edib.

### SEÇKİ GÜNÜNDƏ ZƏFƏR AB-HAVASI

7 fevral seçkilərini fərqləndirən cəhətlərdən biri də Vətən müharibəsindən sonra keçirilən ilk seçkilər olmasıdır. Bu prosesdə hər birimiz artıq məğlub, qüruru əyilmiş bir xalqın təmsilçisi kimi yox, qalib bir millətin, dövlətin vətəndaşı olaraq seçim etdik. Seçki günü yaşanan ab-hava, insanların sanki mənəvi bir rahatlıq tapdığını göstərirdi.

SƏHİFƏ 8-9-da




## "BREXİT"DƏN SONRA "DEXİT" TƏHLÜKƏSİ

Böyük Britaniyadan sonra daha bir böyük dövlətin Avropa İttifaqından ayrılması məsələsi gündəmdədir. Söhbət blokun əsas iqtisadi gücü sayılan Almaniyadan gedir. Ölkədə bu ideyanı dəstəkləyənlərin sayı artır.

SƏHİFƏ 4-də



## QEYDİYYAT MƏSƏLƏSİ HƏLLİNİ TAPIR

Artıq qeydiyyatı olmayan vətəndaşlar "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər. Hətta evinin çıxarışı olmayanlar belə, əllərində olan müvafiq sənədləri təqdim etməklə qeydiyyata alınırlar.

SƏHİFƏ 11-də



## İPƏK YOLU ÜZƏRİNDƏ TURİZM PERSPEKTİVLƏRİ

"Müasir İpək Yolu Ortaq Turizm" paketi ilə bağlı razılaşma əldə olunsa da, onun reallaşması ləngiyir. Böyük perspektiv vəd edən layihənin reallaşmasına pandemiya mane olub. Layihə İstanbulda başlayıb Bişkekdə başa çatmalı idi.

SƏHİFƏ 7-də



Ətri ilə insanları cəlb edən real təhlükə

SƏHİFƏ 10-da



Qadınları sevən xəstəlik

SƏHİFƏ 14-də



Ən tıxaclı yolun bitməyən problemi

SƏHİFƏ 13-də



Onun şeirləri musiqiyə ölçülmüşdü

SƏHİFƏ 15-də



Çətin qrupda maksimum hədəf

SƏHİFƏ 16-da



# İrakli Kobaxidze İlham Əliyevə zəng edib

Fevralın 9-da Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.
İrakli Kobaxidze İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona Azərbaycanın rifahı naminə fəaliyyətində uğurlar arzulayıb.
Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində İrakli Kobaxidzeni Gürcüstanın Baş naziri vəzifəsinə təsdiq olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev və Baş nazir İrakli Kobaxidze dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildirib, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.



# Albaniyanın Baş naziri Azərbaycana səfər edəcək

Albaniyanın Baş naziri Azərbaycana səfər edəcək. “Report” xəbər verir ki, bu barədə Baş nazir Edi Rama “X” sosial şəbəkə hesabında məlumat verib.
O, tezliklə Bakıda Albaniyanın yeni səfirliyinin açılışında iştirak etməyi səbirsizliklə gözlədiyini qeyd edib.
Qeyd edək ki, Albaniyanın Nazirlər Şurası 2023-cü ilin mart ayında ölkənin xarici işlər nazirinin təklifi əsasında Azərbaycanda səfirliyin açılması ilə bağlı qərar qəbul edib.

# “AKINCI”LAR SİLAHLANMAYA QƏBUL EDİLDİ



“Akıncı” hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev burada PUA-nın idarəolunmasını praktiki həyata keçirib.

Fevralın 9-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən “Akıncı” hücum PUA-larının uçuşunu izləyiblər.
Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verib.

**PUA AKADEMİYASI İLƏ TANIŞLIQ**

Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış oldu. Müdafiə naziri və Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktar dövlətimizin başçısına Akademiyada yaradılan şərait və pilotsuz uçuş aparatları barədə məlumat veriblər. Bildirildi ki, burada hərbi qulluqçuların hazırlığı üçün hər cür şərait yaradılıb. Akademiya müasir standartlara cavab verən bütün növ zəruri texnika və avadanlıqlarla təchiz olunub.



**“AKINCI”LAR HAVAYA QALXDI**

Sonra Ali Baş Komandan yeni hərbi obyektdə müxtəlif tipli PUA üçün uçuş-enmə zolağına gəldi. “Akıncı” hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev burada PUA-nın idarəolunmasını praktiki həyata keçirib.
PUA-nın yerə enməsini izləyən Azərbaycan Prezidenti uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkib.
Daha sonra Prezident İlham Əliyev yeni inşa edilmiş anqar komplekslərinə baxış keçirib.
Anqarlar müxtəlif tipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilən “Akıncı” hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub.
Müzəffər Ali Baş Komandan burada “Akıncı” hücum PUA-sı və aviabombaları ilə də tanış olub.

# Ermənistan əvvəlki kimi ərazilərimizə iddia edir

“Ermənistana qarşı guya ərazi iddialarımızla bağlı Azərbaycana yönələn ittihamlar məsuliyyətdən qaçmaq cəhdindən başqa bir şey deyil”.

“Ermənistan Azərbaycandan gözlənilən təhlükə ilə bağlı növbəti mifi qızışdırmaqla əvvəlki kimi faktiki olaraq ərazilərimizə iddia edir”. Bu barədə Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov “Azadlıq radiosu”na müsahibəsində bildirib.
“Ermənistan və Azərbaycan artıq kifayət qədər yetkindir və öz aralarında qalan problemləri həll etmək iqtidarındadır. Bu istiqamətdə işlər tam sürəti ilə davam edir”, - deyə E.Əmirbəyov kənardan nəhəng oyunçuların məsələyə qarışmasına görə sülh müqaviləsinin iki əks blok arasında geosiyasi rəqabət teatrına çevrilmək riski fikrinin yayılması fonunda bildirib.



Elçin Əmirbəyov

Bu kontekstdə prezidentin nümayəndəsi Avropa diplomatiyasının rəhbəri Jozep Borrelin Azərbaycanın Ermənistana ərazi iddialarına işarə etdiyi və Bakını İrəvanla substantiv danışıqlara qayıtmağa çağırdığı son bəyanatını tam cəfəngiyyat adlandırıb.
“Ermənistana qarşı guya ərazi iddialarımızla bağlı Azərbaycana yönələn ittihamlar məsuliyyətdən qaçmaq cəhdindən başqa bir şey deyil. Ermənistanın hazırkı konstitusiyasına və ona istinadən hazırlanmış “Dağlıq Qarabağın Ermənistan SRR-ə birləşdirilməsi” haqqında qondarma və qeyri-legitim deklarasiyanın olmasına baxmaq kifayətdir”, - deyə Elçin Əmirbəyov qeyd edib.
“Bu cür konkret faktlar çoxdur, ən azı Ermənistanın MDB-yə üzvlüyünün ratifikasiyası prosesində Ermənistan parlamentinin qəbul etdiyi qeyd-şərtləri, Azərbaycana qarşı açıq ərazi iddiaları olan sənədlər, 44 günlük müharibə bitdikdən sonra Qarabağın Azərbaycanın mülkiyyəti olmasını şübhə altına alan Ermənistanın ölkəmizə qarşı başlatdığı çoxsaylı məhkəmə iddialarına baxın. Mən hələ Azərbaycanın Qarabağ bölgəsini tarixi Ermənistanın tərkib hissəsi kimi təqdim etməyə davam edən Ermənistan Xarici İşlər Nazirliyinin rəsmi saytından danışmıram”.
“Biz yuxarıda qeyd etdiyimiz bütün narahatlığımızı dəfələrlə erməni tərəfinin diqqətinə çatdırmışıq, lakin təəssüf ki, hələ də onların aradan qaldırılması üçün konkret addımlar atmayıblar”, - deyə E.Əmirbəyov yekunlaşdırıb.



# AZƏRBAYCANIN geosiyasi çəkisini artıran nəticə

İlham Əliyevin növbəti dəfə prezident vəzifəsinə seçilməsi Cənubi Qafqaza sülh və sabitlik, iqtisadi tərəqqi və regional rifah vəd edir. Bu seçkilərlə Cənubi Qafqazda yeni sülh erası başlayır.

RÜSTƏM QARAXANLI

Fevralın 7-də keçirilmiş Prezident seçkiləri tək Azərbaycanda deyil, bütövlükdə bölgəmizdə növbəti inkişaf mərhələsi və yeni münasibətlər sisteminin başlanğıc anonsu oldu. Azərbaycan hər zaman Cənubi Qafqaz regionunun lokomotivi rolunda çıxış edib. Əgər bu öncüllük 44 günlük müharibəyədək özünü siyasi və iqtisadi müstəvidə büruzə verirdisə, II Qarabağ savaşından sonra Bakı tək bölgəmizin deyil, daha geniş arealın - Orta Asiya (Türkdilli dövlətlər) ilə Türkiyəni (Avropa) birləşdirən iri geosiyasi faktora çevrildi. Bu yeni reallıq arxitekturasının qurulması və ayaq üstündə durması Prezident İlham Əliyevin xidmətidir. Dövlət başçısının növbəti dəfə bu vəzifəyə seçilməsi özü ilə sülh və sabitlik, iqtisadi tərəqqi və regional rifah gətirən kursun davam etməsi deməkdir. Bu seçkilərlə Cənubi Qafqazda sülh erası başlayır.

## SÜLH GƏTİRƏN SEÇKİLƏR

Erməni xalqının mental özəllikləri və Ermənistan dövlətinin mahiyyəti baxımından bölgənin inkişafı önündə əsas maneə olan Azərbaycan torpaqlarının işğalına sülh yolu ilə son qoymaq mümkün deyildi. Bunu 30 il ərzində aparılan nəticəsiz danışıqlar da sübut etdi. Özü də söhbət tək sülhə maneə olan erməni xislətindən getmir. Son üç il aydın şəkildə göstərir ki, bölgəmizdə dayanıqlı barışın əldə olunmasına dünyanın iri geosiyasi oyunçuları, daha konkret isə Qərb razı deyildi və hər vəchlə mümkün prosesin qarşısını alırdı. Başqa sözlə, torpaqlarımızın azad olunmasının hərb variantının alternativi yox idi. Dünya tarixində hərb yolu ilə sabit sülhə nail olmaya dair yüzlərlə nümunə var. Bu baxımdan, Azərbaycanın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi yolla ədaləti bərpa etməsi əslində tək bizim qələbəmiz deyil, həm də digər region dövlətləri üçün inkişaf, tərəqqi və iqtisadi çiçəklənməyə yol açmış faktordur.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan müharibənin qalibi olsa da, müasir dünya tarixi üçün unikal təşəbbüsə müəlliflik etdi: döyüş meydanında məğlub edilən Ermənistana sülh əlini uzatdı. 7 fevral seçkilərində əhalinin mütləq əksəriyyətinin cənab İlham Əliyevə səs verməsi Ermənistan rəhbərliyi və əhalisi tərəfindən layiqincə dəyərləndirilməlidir: Azərbaycan xalqı Prezident İlham Əliyev tərəfindən Qafqaza gətirilmiş sülh reallığını dəstəkləyir. Bu reallığın erməni xalqı tərəfindən düzgün qiymətləndirilməsi onun düşdüyü ağır iqtisadi böhrandan çıxışı üçün ilkin addım ola bilər.



Foto: Tapdıq Abdullayev/Global Media Group

## YENİ GEOSİYASİ ARXİTEKTURA

Vətən müharibəsi bitəndən dərhal sonra Azərbaycan Prezidenti bütün bölgənin rifahına xidmət edəcək 3+3 təşəbbüsü ilə çıxış etdi. Geosiyasi praqmatizmə əsaslanan bu düstur regional problemlərin bölgə ölkələri və yaxın qonşular - Türkiyə, Rusiya və İranla birlikdə həllini nəzərdə tutur. Bu təşəbbüs həm tarixi, həm də gerçəklik baxımından optimal sabitlik yoludur. Qərbin, əsasən də Fransanın qısqanclığı ilə qarşılanmasına və nəticə etibarilə Ermənistanın bu prosesdən uzaqlaşdırılma cəhdlərinə baxmayaraq, təşəbbüs üç ildən çoxdur ki, davamlılığını sübut edir. Əgər regionda sülhdən danışılırsa, onunla qonşu olan, burada tarixi maraqlara malik dövlətlərin nəzərə alınmaması ağır fəsadlara səbəb ola bilər ki, Ermənistanın düşdüyü mürəkkəb geosiyasi düyün bunun əyani göstəricisidir.

Qafqazın cənubunda Azərbaycanın maraqlarını nəzərə almadan nəinki sülhə nail olmaq, ümumiyyətlə, adi iqtisadi layihəni belə həyata keçirmək mümkün deyil. Ölkəmizin dominant üstünlüyü və söz sahibi olmasının müəllifi məhz Prezident İlham Əliyevdir. Azərbaycan xalqı əsrlərdir bu statusundan məhrum olub. Seçkilərin nəticələri göstərir ki, illərdir işğala, təzyiqə, məhdudiyyətlərə və ədalətsizliyə məruz qalan xalq statusundan tamamilə fərqli mövqeyə yiyələnməkdəyik: biz həm bölgəmizin, həm də təmasda olduğumuz coğrafiyanın açarı, söz sahibi olan xalqına çevrilmişik. İlham Əliyevin böyük üstünlüklə qalib olması Azərbaycan xalqının bu geosiyasi rıçaqı ciddi dəyərləndirməsinin göstəricisidir. Qlobal siyasi və iqtisadi oyunçuya çevrilmiş Azərbaycan tək hakim siyasi qüvvənin, yeni dövlətin kursunun nəticəsi deyil, həm də xalq tərəfindən diktə edilən sosial sifarişdir.

## İQTİSADİ ÇİÇƏKLƏNMƏ

Azərbaycan postsovet Qafqazının iqtisadi xilaskarıdır. Əgər Ermənistan özünün ekspansionist siyasəti ilə regional iqtisadi inkişaf önündə bir maneədirsə, qonşu və dost Gürcüstanda bu reallığı daha yaxşı bilir və dəyərləndirirlər. Azərbaycanın nüvəsini təşkil etdiyi neft, qaz, logistika sahələrini əhatə edən iri transmilli layihələr qonşu Gürcüstan üçün həm maddi gəlir mənbəyi, həm də sabitliyin təminatçısı olub. Təəssüf ki, Ermənistan köhnə hakimiyyətləri dövründə olduğu kimi, indi də Azərbaycanın geniş iqtisadi imkanlarından yararlana bilmir. Məsələn, Zəngəzur dəhlizi müasir Ermənistan üçün yeni Bakı-Tbilisi-Ceyhan ola bilər.

Prezident İlham Əliyevin yenidən bu posta seçilməsi Rusiya-Ukrayna müharibəsi və Qərb-Moskva qarşıdurmasının dərinləşməsi fonunda Cənubi Qafqazın artan iqtisadi önəminin materiallaşmasının davamı deməkdir. Bölgəmiz dünyanın ən iri nəqliyyat və logistika dəhlizlərindən birinə çevrilir. Azərbaycan hələ müharibədən illər öncə inkişaf etmiş yol-nəqliyyat infrastrukturunun qurulmasına nail olub. Dəmir yolu xətləri modernləşir və yük qabiliyyətinin artırılması istiqamətində miqyaslı işlər görülür. Ələtdə tikilmiş yeni limanın əsas missiyası Çindən Qərbə daşınan yük axınında özünə yer etməkdir. Ancaq yeni şərait bizim bu imkanlarımızı daha real edir və əslində, cənab İlham Əliyevin rəhbərliyi ilə hökumətin atdığı addımların strateji miqyasını göstərir. 7 fevral seçkilərinin nəticələri bu prosesin – “Orta dəhliz”in daha böyük həcmlərdə fəaliyyət göstərməsi üçün təminat deməkdir.

Azərbaycan özünün siyasi gücü, iqtisadi imkanları və hərbi qüdrəti ilə faktordan güc statusuna transformasiya etmiş dövlətdir. Məhz buna görə ölkəmizdə keçirilmiş seçkilərin sonucları tək daxili auditoriya deyil, həm də xarici tərəfdaşlar və bölgədə həyati maraqları olan dövlətlər üçün də əhəmiyyətlidir. Azərbaycan bu statusa məhz Prezident İlham Əliyevin ardıcıl siyasi kursu hesabına nail olub. Xalqımızın liderinə yenidən və böyük fərqlə etimad göstərməsi, Azərbaycanın geosiyasi çəkisinin artmasında ardıcıllığın və davamlılığın təmin olunması deməkdir. İqtisadi çiçəklənmə Cənubi Qafqaz üçün yeni sülh erasının başlıca trendi olacaq.

# “BREXiT”DƏN SONRA “DEXiT” TƏHLÜKƏSİ



Böyük Britaniyadan sonra daha bir böyük dövlətin Avropa İttifaqından ayrılması məsələsi gündəmdədir. Söhbət blokun əsas iqtisadi gücü sayılan Almaniyadan gedir. Ölkədə yaşanan iqtisadi tənəzzül və etiraz aksiyaları fonunda bu ideyanı dəstəkləyənlərin sayı artır.




AZƏR NURİYEV

## “Dexit”in nəticələri fəlakətli ola bilər

Son aylarda Avropa İttifaqının (Aİ) iki əsas üzvü olan Fransa və Almaniyada başlayan etiraz aksiyaları birliyin gələcəyini təhlükə altına alan meyllərin artmasına səbəb olub. Fermerlərin, sürücülərin, tranzit daşıma şirkətləri işçilərinin kütləvi itaətsizlik aksiyaları bu ölkələrdə ifrat sağçıların yüksəlişinə təkan verib. Bu tendensiya daha çox Almaniyada müşahidə edilir.

Ölkə daxilində Aİ-dən çıxmaqla bağlı çağırışlar artır. Sözdə “Dexit” adlandırılan bu prosesin həm Almaniya, həm də Aİ-yə mümkün mənfi nəticələri indi əsas müzakirə mövzularından biridir. Qeyd edək ki, Aİ-yə hazırda 27 dövlət daxildir. Lakin onların iqtisadiyyatları, ölçüləri və strukturları bir-birindən fərqlənir. Almaniya iqtisadi baxımdan təşkilatın lider ölkəsidir. Onun iqtisadi gücü bütünlükdə Aİ-nin ümumi daxili məhsulunun (ÜDM) 24 faizini, üzv ölkələrdən birbaşa investisiyaların beşdə birini (21%) təşkil edir. Almaniya həm də Aİ daxilində mal və xidmətlərin ən böyük ixracatçısı və idxalçısıdır. Ekspertlər xəbərdarlıq edirlər ki, “Dexit”in nəticələri həm blok, həm də bütövlükdə Almaniya üçün fəlakətli ola bilər.

## Almaniya 227 milyard avro itirəcək

İqtisadi proqnozlara fikir verək. Almaniyanın Bertelsmann Fondunun araşdırmasına görə, ölkənin Aİ-dən çıxması onun blokda qaldığı ssenari ilə müqayisədə 2030-cu ilə qədər təşkilatın ÜDM-nin 0,3, Almaniyanın ÜDM-nin isə 0,5% azalmasına səbəb olacaq. Araşdırmada həmçinin xatırladılır ki, Böyük Britaniyanın Aİ-dən çıxması blokun ixracının 1,7%, Almaniyanın ixracının 3,2%, həmçinin Aİ əhalisinin müvafiq olaraq 1,4% və Almaniya əhalisinin 3,9% azalmasına səbəb olub. Almaniya Aİ və vahid bazarı tərk edərsə, o, daha ciddi ticarət maneələri və blok daxilində işçi qüvvəsinin hərəkətliliyinin azalması ilə üzləşəcək.

“Al Arabiya” yazır ki, iqtisadçılar Almaniyanın Aİ-dən çıxmasının zərərini hesablayıblar. “Dexit” baş verərsə, Aİ büdcəsinin beşdə birini, Almaniya iqtisadiyyatı isə 227 milyard avro itirəcək.

Avropa İslahatları Mərkəzinin araşdırmasında isə bildirilir ki, Almaniyanın blokda qaldığı ssenari ilə müqayisədə “Dexit” 2030-cu ilə qədər Aİ-ni ÜDM-in 0,9%-dən və Almaniyanı ÜDM-in 1,9%-dən məhrum edəcək.



## Pisləşən iqtisadi göstəricilər

Əslində, Fransa ilə yanaşı, Almaniyanın daxilində də iqtisadi tənəzzül yaşanmaqdadır. Bunun isə bir çox səbəbi var. Almaniya İqtisadi Tədqiqatlar İnstitutunun (DIW) təhlilinə görə, Almaniya hazırda Ukraynadakı müharibə və Rusiya qazının tədarükünün tamamilə kəsilməsi səbəbindən 100 milyard avro artıq itirib. Bu, ÜDM-in 2,5%-i deməkdir.

“Euronews”un məlumatına görə, “alman lokomotivi” 2023-cü ilin dördüncü rübündə enerji daşıyıcılarının qiymətlərinin artması, Avropada tələbin zəifləməsi səbəbindən ÜDM-də 0,3 faizlik geriləmə yaşayıb. Ölkə artıq qlobal dünyada rəqabət qabiliyyətini itirir. Bütün bunlar 2023-cü ildə ixracın 1,2 faizlik göstərici ilə ciddi şəkildə azalmasına səbəb olub. Digər tərəfdən, Mərkəzi Bankın faiz dərəcələrini yüksəltməsi, 2023-cü ildə qeydə alınan yüksək qaçaq inflyasiya Almaniyada məcburi vergi tənzimləmələrinə və kənd təsərrüfatı subsidiyalarının kəsilməsinə gətirib çıxarıb. Bu da öz növbəsində alman fermerlərinin və digər sahələrdə çalışanların kütləvi etirazlarına təkan verib.

## Aİ-NİN HESABINA ƏLAVƏ GƏLİRLƏR ƏLDƏ EDƏNLƏR VAR

“Dexit” bloka daxil olan digər üzv dövlətlər üçün də iqtisadi tənəzzül vəd edir. Aİ-nin bu il üçün təxmini büdcəsi 143 milyard avro təşkil edir ki, bunun da 137 milyardı üzv ölkələrin birbaşa investisiyalarından ibarətdir. Almaniyanın payı 30,3 milyard avrodan çoxdur. Aİ-yə üzv dövlətlərin əksəriyyətinin ümumi büdcədən aldığı pay öz büdcələrindən qatqılarından qat-qat çoxdur. Məsələn, Polşa ən böyük benefisiardır. 2022-ci ildə Aİ büdcəsinə qoyduğu sərmayədən 16,6 milyard avro çox vəsait əldə edib. İkinci yerdə İspaniya (13 milyard avro), üçüncü yerdə isə İtaliya (8,4 milyard avro) qərarlaşıb.

Aİ-nin son hesabatında bildirilir ki, 7,5 milyon alman aztəminatlı işlərdə çalışır. “Paritatischer Gesamtverband” qeyri-hökumət təşkilatının məlumatına görə isə, Almaniyada yoxsulluq riski altında olan insanların nisbəti ümumi əhalinin 16,6 faizini təşkil edir. Bütün bunlar xüsusilə də Şərqi Almaniyada yaşayanlar arasında ksenofobik hisslərin güclənməsinə səbəb olur. Proqnozlara görə, bütün bu yaşananlar Aİ-nin əsas iqtisadi gücü hesab edilən ölkədə 2025-ci ildə keçiriləcək növbəti seçkilərdə ifrat sağçı partiya və təşkilatların populyarlığının əhəmiyyətli dərəcədə artmasına təkan verir.

Göründüyü kimi, bu gün Azərbaycana Avropanın müxtəlif strukturlarında “dərs” verməyə çalışan, ölkəmizə münasibətdə ədalətsiz qərarların əsas təşkilatçıları olan ölkələrin özləri tənəzzül içindədir. Qərəzli siyasi ambisiyalar bu ölkələrin iqtisadi inkişafının əsas lokomotivini təşkil edən enerji daşıyıcılarının əsas tədarükçülərindən olan və etibarlı tərəfdaş kimi özünü sübut etmiş Azərbaycanla münasibətlərə kölgə salır. Bu cür çətin durumda zərərin yarısından da dönmək mümkündür. Azərbaycanın haqlı tələbləri və yaratdığı reallıq nəzərə alınmaq şərtilə...

KİÇİK MÜHƏRRİKLİ AVTOMOBİLLƏR VƏ TAKSİLƏR NİYƏ SIĞORTA EDİLMİR?

# SIĞORTA ŞİRKƏTLƏRİNİN YARATDIĞI PROBLEMLƏR

Bu gün elə sığorta şirkətləri var ki, könüllü şəkildə avtomobillərin icbari sığortasından imtina ediblər. Bir sıra şirkətlər də bu sıraya qoşulmağı düşünürlər. Hətta satışları dayandıranlar da mövcuddur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Kiçik mühərrikli avtomobil sahiblərinin sığorta ilə bağlı yaşadıqları problemlər bitmək bilmir. Sürücülər bildirirlər ki, sığorta şirkətləri bu tip avtomobillərin sığortasına həvəs göstərmirlər. Müxtəlif maneələr yaradırlar.

### "NARAZI QALANLAR MƏHKƏMƏYƏ MÜRACİƏT ETSİNLƏR"

Fərdi fəaliyyət göstərən sığortaçı Sadiq Qulamov düşünür ki, avtomobil sahibləri özləri bu məsələdə israr etmirlər: "Nə sığorta şirkətlərinin, nə də dövlətin müəyyən etdiyi qiymətlərdə problem mövcud deyil. Sadəcə, sığorta şirkəti hesablayır, bir qiymət təyin edir, amma bu müştərini qane etmir. Müştərilər narazıdırlarsa, məhkəməyə müraciət edib istədikləri məbləği ala bilirlər. Sadəcə, zərərçəkənlər laqeydlik göstərirlər".

### HƏMİN LİMİT BƏRPA OLUNUR

Sığorta eksperti İlkin Nəcəfov dedi ki, şirkətləri də anlamaq lazımdır: "Sığorta şirkətləri xeyriyyə yox, kommersiya təşkilatlarıdır. Qarşılarında tələb var ki, həm də pul qazanmalıdırlar. Sığorta şirkətlərinin müraciət edən sığortaçıya ödəniş etməmək kimi hüquqları yoxdur. Avtomobil sahibləri istənilən sığorta şirkətinə yaxınlaşıb icbari sığorta ilə bağlı müraciət edə bilər. Şirkətlər isə imtina edə bilmədikləri üçün işi yubadırlar".

İ.Nəcəfov bildirdi ki, icbari sığorta qaydalarına əsasən, hər gün qəza törətsən də, sığorta şirkəti o zərəri ödəməlidir: "Həmin limit bərpa olunur. Yəni bir dəfə ödənildi deyə sıfırlanmır. Bu gün bizdə elə sığorta şirkətləri var ki, könüllü şəkildə avtomobillərin icbari sığortasından imtina ediblər. Bir sıra şirkətlər də bu sıraya qoşulmağı düşünürlər. Hətta satışları dayandıranlar da mövcuddur. Bu da onu göstərir ki, icbari sığorta sahəsindəki toksik faktorlar sığorta şirkətlərinin maliyyə təhlükəsizliyi, həmçinin fəaliyyəti üçün təhdiddir. Bununla bağlı Azərbaycan Sığortaçılar Assosiasiyası və sığorta şirkətləri qərara gəldilər ki, maliyyə sığortasına gələn pulla ümumi icbari sığortaya dəyən zərəri müəyyən qədər kompensasiya etsinlər. Həmçinin, sığorta haqlarının qaldırılması ilə dəyən zərər ödənilsin. Lakin bunun da nəticəsi olmadı".



İlkin Nəcəfov

## TAKSİLƏRDƏ QƏZALARIN SAYI ÇOX OLUR

Ekspert qeyd etdi ki, ən çox problem taksilərdə olduğu üçün bu istiqamətdə müəyyən addımların atılması planlaşdırılır: "Keçən ilin oktyabr ayından finkoda görə bonus-malus hesablanan zaman artıq sürülən yer, sürücünün yaşı, zərərin dərəcəsi, maşının ili, verilən etibarnamələr - hamısı nəzərə alınır. Mərkəzi Bank tənzimləmə ilə bağlı düşünürdü ki, taksilər üçün risk əsaslı ayrı bir kateqoriya yaratsın. Yəni taksi fəaliyyəti olduğu üçün optimal əmsal tətbiq edilsin. Bu ona görədir ki, nəqliyyat vasitəsi nə qədər çox sürülürsə, hadisə törətmək ehtimalı da o qədər yüksəkdir. Taksilərdə davamlı qəzaların sayı çox olur. Həmin maşınların çoxuna dəyən zərər 1000 manat ətrafındadır. 10 faiz hallarda tam zərər ola bilir".

### GÜNAH TAKSİ ŞİRKƏTLƏRİNDƏDİR

İ.Nəcəfovun fikrincə, bu məsələdə taksi sürücüləri də günahkar deyillər: "Taksilərlə bağlı bunu da nəzərə almalıyıq ki, şirkətlər taksi sürücülərinin qarşısına şərt qoyur ki, "25 gediş etməlisən". Ona görə sürücülər yatmırlar, dincəlmirlər. Belə olan halda qəza riski də artır. Burada əsas günahkar maşınları alıb taksi parkı yaradan şirkətlərdir. Çünki onlar həm maşınları, həm də sürücüləri həddindən artıq istismar edirlər".

### SIĞORTA ŞİRKƏTLƏRİ DƏ NARAZIDIR

Müsahibimizin sözlərinə görə, sığorta şirkətləri də taksi kimi istifadə olunan avtomobilləri sığortalamaqdan yayınırlar: "Ehtimal ki, Mərkəzi Bank taksi fəaliyyəti ilə bağlı tənzimləyici əlavələr edəcək. Onların sığorta qiyməti daha da artacaq. Amma burada bəzi məqamlar var. Məsələn, hadisə baş verdikdə həmin avtomobilin taksi olub-olmadığını müəyyənləşdirməklə bağlı boşluqlar mövcuddur. Çünki bəzi taksi sürücüləri kasko sığortası etdirirlər, ondan sonra isə taksi kimi fəaliyyət göstərirlər. Bu halda sığorta şirkətləri şərt qoyurlar ki, maşın taksi fəaliyyəti üçün istifadə olunsa, sığortanı ödəməkdən imtina edəcəklər. Hadisə olur, taksinin heç bir yerdə qeydiyyatı yoxdur, sığorta şirkətindən fəaliyyətini gizlədir, bu da çətinliklər yaradır. O cümlədən sığorta edən vaxt avtomobilin hansısa taksi şirkətinin balansında olub-olmamasını müəyyənləşdirəcək kriteriyalar hələ ki, mövcud deyil. Bununla bağlı da dövlət tənzimləməsinə ehtiyac var".

### ÇIXIŞ YOLU TAKSİLƏRİN SAYINI AZALTMAQDIR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəqliyyat fakültəsinin baş müəllimi Bulud Bağırov da düşünür ki, bu sahədə ən böyük problem taksi kimi istifadə olunan avtomobillərlə bağlı yaşanır: "Hüquqi cəhətdən sığorta şirkətlərinin etdiyi hərəkət qanunsuzdur. Fikrimcə, onlar cəzalandırılmalıdırlar. Avtomobil sahibləri isə yaşından asılı olmayaraq, təlimdən keçməlidir. Çünki sürücülərin əksəriyyəti sürücülük vəsiqəsini müxtəlif yollarla əldə edirlər. Təlim keçsələr, ən azından yol hərəkəti qaydalarını bilərlər. Hər gün qəzalarla qarşılaşırıq. Qəzaların 70-80 faizini törədən taksilərdir".

B.Bağırovun fikrincə, çıxış yolu taksilərin sayını azaltmaqdır: "Hazırda bazarda ən azı 20-30 taksi şirkəti mövcuddur. Azaltmaq üçün ya onların qarşısında müəyyən şərtlər qoyulmalı, ya da Bakının rayonları üzrə bölünməli, taksi parkları yaradılmalıdır".



Bulud Bağırov

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

ƏHALİNİN BANKLARA OLAN İNAMINI ARTIRAN SƏBƏBLƏR

# YASTIQ ALTINDAN BANKLARA




**Vətəndaşların banklarda milli valyutada olan əmanətlərinin məbləği bir il ərzində 16,3 faiz artıb. Ekspertlər bu rəqəmi kifayət qədər ciddi göstərici hesab edir və bunu banklara olan inamın artması kimi səciyyələndirirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Mərkəzi Bank xəbər verir ki, əhalinin banklardakı əmanətlərinin məbləği bir il ərzində 8,1 faiz artaraq 2023-cü il dekabr ayının 1-nə milli valyuta ekvivalentində 12 524,9 milyon manat təşkil edib. Əmanətlərin 65,8 faizi milli, 34,2 faizi xarici valyutada qoyulub. Milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,3 faiz artıb. Bu, insanların banklara olan inamının artdığını göstərir. Bəs artan inamın əsasında hansı səbəblər dayanır?

### YENİ QAYDALAR NƏTİCƏSİNİ VERİR

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov "Kaspi" qəzetinə açıqlamasında deyib ki, bu gedişlə əmanətlərin həcminin daha da artacağı gözlənilir: "Mərkəzi Bank tərəfindən yürüdülən siyasət, banklara depozit cəlbetmə imkanlarının yaxşılaşdırılması, eləcə də 2024-cü il yanvarın 1-dən etibarən vətəndaşların banklardakı əmanətlərinin faizlərinin gəlir vergisindən azad olunması bank depozitlərinin həcminin artmasına səbəb olub. Yeni qaydalara əsasən, əhalinin milli valyutada olan əmanətlərinin aylıq 200 manat məbləğində olan hissəsi gəlir vergisindən azad olunur. Vətəndaş banka 10 faizlə 24 min manat depozit yerləşdirdikdə, onun aylıq gəliri 200 manat təşkil edəcək və bu vəsaitdən vergi tutulmayacaq. Yaxud, banka 8 faizlə 30 min manat əmanət qoyan şəxs illik 2400, aylıq 200 manat gəlir əldə etdiyindən, ondan da vergi tutulmayacaq. Vergi həmin məbləğdən sonrakı hissədən tutulacaq. Bu isə banklara yatırılan əmanətlərin artımına əlavə stimul verəcək. Hazırda əhalinin banklardakı əmanətlərinin həcmi 13 milyard manata yaxındır, ilin sonuna bu rəqəmin yenidən artması gözlənilir".

# YENİ BANK MƏCƏLLƏSİ QƏBUL EDİLMƏLİDİR

A.Hüseynov bildirib ki, bank depozitlərinin həcminin artması banklar üçün daha çox kredit vermə imkanlarını da stimullaşdırır: "Ona görə də bank sektorunda rəqabətin güclənməsinə, xüsusən də konservativ siyasətdən mərhələli şəkildə daha liberal siyasətə keçidin təmin olunmasına ehtiyac var. Bir sıra xarici bankların, xarici kapitalın bank sektoruna gəlməsi rəqabətin güclənməsinə gətirib çıxara bilər. Mərkəzi Bank tərəfindən depozit faizləri ilə kredit faizləri arasında müəyyən asılılığın tövsiyə olunması da mümkündür. Hazırda Mərkəzi Bank da bu istiqamətdə çalışır. Maliyyə bazarlarına nəzarət sahəsində ciddi islahat aparılmalı, bank sektoruna nəzarət gücləndirilməlidir. Tək Mərkəzi Bankın fəaliyyəti azdır, həm də qanunvericilik bazası möhkəmləndirilməli, Bank Məcəlləsi qəbul edilməlidir".

### İNSANLAR BİLİR Kİ, PULUNU İTİRMƏYƏCƏK

Maliyyə və bank məsələləri üzrə ekspert Xəyal Məmmədlinin sözlərinə görə, əmanətlərin sığortalanması insanların banklara olan inamını daha da artırıb: "Əmanətlərin artmasına səbəb ilk növbədə sığorta mexanizminin normal şəkildə işləməsidir. Əmanətlərin Sığortalanması Fondu milli valyutada maksimum 12 faiz, dollar və avroda 2,5 faiz hədd müəyyənləşdirib. Bir nəfər üçün 100 min manat sığorta məbləği mövcuddur. Əmanətlərin Sığortalanması Fondunun iş mexanizmi onu göstərir ki, hansısa bir bank bağlansa da, qaydalara uyğun şəkildə əmanətlər vaxtında qaytarılır. Sığorta mexanizmi normal şəkildə işlədiyinə görə insanlar bilirlər ki, əmanət itirilməyəcək və qorunur. Gəlirlilik dərəcəsi də kifayət qədər normaldır. Milli valyutada 12 faiz gəlir əldə etmək mümkündür".

### SIĞORTA LİMİTİNİN MƏBLƏĞİ ARTIRILSIN

X.Məmmədlinin fikrincə, müəyyən addımlar atılsa, hər şey banklar üçün daha da yaxşılaşar: "Gələcəkdə əmanətlərin məbləği daha da arta bilər. Əvvəl fiziki şəxslərin qorunan əmanətlərində limit yox idi. Sonradan 100 min manat limit müəyyənləşdirildi. Əgər Mərkəzi Bank istəsə ki, kommersiya banklarında əmanətlərin məbləği daha da artsın, 100 min manatlıq limiti ya artıra, ya da ləğv edə bilər. Bu zaman banklara daha çox vəsait cəlb olunar. Amma hüquqi və sahibkar fiziki şəxslərin banklardakı vəsaitləri sığortalanmır. Onlar üçün də sığorta mexanizmi yaradılsa, bu da əmanətlərin məbləğinin artırılmasına dəstək olar".

### BƏZİ BANKLAR VAR Kİ...

İqtisadçı Fuad İbrahimov dedi ki, xarici valyutada faizlərin artırılması da insanları stimullaşdırır: "Əmanətlərin həcminin artmasındakı ilk göstərici depozit faizlərinin artmasıdır. Bu, böyük rol oynayır. Bununla yanaşı, vəsaitlərin sığortalanmış hissəsinin kifayət qədər yüksək olması da təsir göstərir. Bəzi banklar var ki, xarici valyutada depozit faizlərini artırılmış şəkildə təklif edirlər. Bu da vətəndaşlar tərəfindən müsbət qəbul olunur".

### BU VERGİ LƏĞV EDİLSİN

F.İbrahimov qeyd etdi ki, əmanətlərin daha da artması üçün sabitliyi qorumaq lazımdır: "Depozitlərə tətbiq edilən gəlir vergisi yumşalıb. Amma yaxşı olardı ki, bu vergi ümumiyyətlə ləğv edilsin. Çünki pul kütləsinin rəsmi dövriyyəyə cəlb olunması istiqamətində maneə törədən əmsaldır. Vergi aradan qaldırılsa, bu, prosesi daha da stimullaşdıracaq".



Xəyal Məmmədli
Aydın Hüseynov
Fuad İbrahimov

# İPƏK YOLU ÜZƏRİNDƏ TURİZM PERSPEKTİVLƏRİ



“Müasir İpək Yolu Ortaq Turizm” paketi ilə bağlı razılaşma əldə olunsa da, onun reallaşması ləngiyir. Böyük perspektiv vəd edən layihənin reallaşmasına pandemiya mane olub.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ölkəmizin mədəni turizm marşrutları sırasına bir neçə il əvvəl Türk Şurası tərəfindən təşkil edilən “Müasir İpək Yolu Ortaq Turizm” paketi də daxil oldu. Türk Şurasının dörd üzv ölkəsini - Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Türkiyəni birləşdirən paketin təşkilində əsas məqsəd bu ölkələrin mədəniyyətini təqdim edib, onları dünyaya tanıtmaq, eləcə də turistik marşrutun keçəcəyi regionların iqtisadi inkişafına töhfə vermək idi. Hətta 2023-cü ilə qədər bu marşrutdan istifadə edən turistlərin sayının bir milyona çatacağına ümid də vardı. Turistik layihə İstanbulda başlayıb Bişkekdə başa çatmalı, Azərbaycan üzrə Bakı, Qobustan, Şəki, Şamaxı, Gəncə və Naxçıvandan keçməli idi.

Təəssüf ki, təntənə ilə təqdimatı keçirilən, hətta media işçiləri və turizm nümayəndələri üçün ilkin sınaq turları baş tutan layihə elə kağız üzərində də qalıb. Hətta o qədər unudulub ki, layihədə iştirak edəcək ölkələrin ölkəmizdəki səfirliklərinin heç birində nə layihəni xatırlayan, nə də bununla bağlı suala cavab verən tapıldı.

Amma deyəsən, Avropa və Asiyadan keçən tarixi ticarət yoluna gələcəkdə turistlərin cəlbi, ümumən layihənin reallaşması istiqamətində işlərin həyata keçməsi üçün ölkəmizdə aidiyyəti qurumlar yenidən hərəkətə keçiblər. Hər halda, mövzu ilə bağlı araşdırmalarımız bunu deməyə əsas verir.

## ORTAQ İPƏK YOLU İRSİNİN TƏBLİĞİ

Dövlət Turizm Agentliyinin layihənin reallaşması istiqamətində həyata keçirdiyi işlərlə bağlı sorğumuza verdiyi cavabda işıq ucu hiss olunur. Belə ki, Azərbaycanın İpək Yolu irsi üzərindən turizm potensialının gücləndirilməsi məqsədi ilə qurum tərəfindən konsepsiya hazırlanıb. Sənədə əsasən, UNESCO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində Azərbaycanın maddi və mədəni irs elementləri üzərindən İpək Yolu mövzusunda müxtəlif turizm məhsullarının hazırlanması, Bakıda və regionlarda İpək Yolu mərkəzlərinin yaradılması, müxtəlif tədbir və festivalların, sənətkarlıq sərgilərinin keçirilməsi nəzərdə tutulur: “Konsepsiyada dünya ölkələrinin oxşar və ortaq İpək Yolu irsi, turizm strategiyaları araşdırılaraq qədim İpək Yoluna xas fəaliyyətlərin canlandırılması, bu sahəni nümayiş etdirən müasir muzeylərin yaradılması, qədim emalatxanaların bərpası ilə bağlı təkliflər yer alıb. Sənəddə həmçinin Azərbaycanda İpək Yolu maddi və qeyri-maddi mədəni irsini əhatə edən beş istiqamət üzrə turizm marşrutlarının işlənilməsi, bu marşrutlar üzərində tarixi abidələrin (türbələr, hamamlar, məscidlər, körpülər və s.) bərpası nəzərdə tutulub”. Agentliyin məlumatına görə, keçən ilin iyun ayında Dövlət Turizm Agentliyi ilə UNESCO arasında İpək Yolunun turizm potensialının birgə öyrənilməsi üzrə əməkdaşlıq haqqında niyyət sənədi də imzalanıb: “Niyyət sənədi İpək Yolu üzərində turizm perspektivlərinin araşdırılması və bu istiqamətdə həyata keçiriləcək gələcək layihənin detallarının işlənib hazırlanmasını ehtiva edir. Layihə çərçivəsində Azərbaycanda İpək Yolu ilə bağlı genişmiqyaslı beynəlxalq tədbirin keçirilməsi də planlaşdırılır”.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

## TURİST AXINININ SÜRƏTLƏNMƏSİ ÜÇÜN

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) sədr müavini Əhməd Qurbanov da qeyd etdi ki, Avropa və Asiyanı birləşdirən Böyük İpək Yolunun yenidən bərpası, bu ideyanın perspektiv və imkanlarının gerçəkləşdirilməsi işinə UNESCO-nun himayəsi ilə beynəlxalq komissiya hələ 1988-ci ildə başlayıb. Belə ki, məqsədyönlü işlərin nəticəsi olaraq ulu öndərin təşəbbüsü ilə region ölkələri və böyük dövlətlər tərəfindən 1998-ci ilin sentyabr ayında Bakıda Böyük İpək Yolunun bərpa edilməsinə dair beynəlxalq konfransın keçirilməsi qərara alınıb. Bu konfrans regionun nəqliyyat infrastrukturunun inkişafına böyük və çoxşaxəli təkan verib: “Layihənin davamı olaraq Türkdilli ölkələrin dövlət başçılarının 2015-ci ilin sentyabr ayında Astanada keçirilən Zirvə görüşündə əldə edilən razılığa görə, dörd ölkə – Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan birlikdə layihə olaraq “Türk Şurası İpək Yolu Ortaq Turizm” paketi qəbul edib”. Turizmçinin sözlərinə görə, türkdilli ölkələrin mədəni irsini təbliğ edən bu layihənin icrasına 2017-ci ildən başlanıb və işlər davam edir: “Həyata keçirilən layihədə paketin ilkin versiyası 14 günlük nəzərdə tutulub. Turizmdə bu tip layihələrin olması beynəlxalq və regional olaraq ölkələrə turist axınının sürətlənməsinə böyük təkan verir”.

## “PANDEMİYA LAYİHƏNİN İCRASINA MANE OLDU”

**Ə.Qurbanov layihənin reallaşmasının yubanmasının əsas səbəbini pandemiya ilə əlaqələndirir: “Pandemiya layihənin həyata keçirilməsinə mane oldu. Ümumiyyətlə, üç il ərzində pandemiya həm ölkədə, həm qlobal olaraq dünyada turizmə mənfi təsir göstərdi. Bu baxımdan, biz də turizm sahəsində müəyyən işlərdə ləngimələr müşahidə edirik. Hazırda bu layihənin üzərində işləyərək onun daha da inkişafına nail olmaq nəzərdə tutulub”. Turizmçi hesab edir ki, bu marşrut gələcəkdə ölkə turizminin inkişafına böyük imkanlar yaradacaq: “Həmçinin, sərhədaşırı turizm növü turizmdə çox populyar sahədir. Bu vaxta qədər də Gürcüstanla sərhədaşırı turizmin inkişafını, bu tip turların turistlərə nə qədər cəlbedici olduğunu müşahidə edirik. Bu baxımdan, bu layihənin gələcəyinə ümidim böyükdür”.**

## ZƏNGƏZUR DƏHLİZİNİN ROLU BÖYÜK OLACAQ

**Ə.Qurbanovun fikrincə, işğaldan azad edilmiş rayonlarımızda məskunlaşma olandan, Zəngəzur dəhlizinin açılmasından sonra “Müasir İpək Yolu” mədəni turu daha böyük vüsət alacaq və ölkəmizin bu layihədə nə qədər vacib mövqedə olduğunun şahidi olacağıq: “Azərbaycan Şərqlə Qərb arasında birləşdirici mövqeyə malik olacaq. Bu baxımdan, Zəngəzur dəhlizinin böyük rolu vardır. Ölkəmizin bu layihədə açar mövqedə olduğunu görürük. Həm assosiasiya, həm dövlət qurumları olaraq bu mövqenin daha da möhkəmləndirilməsi üçün var gücümüzlə çalışıb töhfələrimizi verməliyik”.**



Əhməd Qurbanov

SİYASƏT Kaspi 10 FEVRAL ŞƏNBƏ 2024 9



## XALQ PREZİDENTİNƏ NÖVBƏTİ DƏFƏ BÖYÜK ETİMAD GÖSTƏRDİ

# TAM VƏ BİRMƏNALI QƏLƏBƏ

Növbədənkənar prezident seçkiləri ilə xalqımız öz lideri İlham Əliyevə olan etimadını bir daha yenilədi. Xalq qalib liderinin arxasında bir yumruq kimi birləşdiyini bütün dünyaya nümayiş etdirdi. Təbii ki, yeni dövrə qədəm qoyarkən ölkə rəhbərliyinin əsas ilham qaynağı xalqından aldığı bu etimad olacaq.







Fotolar: Rüfət Mikayılov- Global Media Group



HAZIRLADI
AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan daha bir tarixi ana şahidlik etdi. Fevralın 7-də ilk dəfə olaraq bütün suveren ərazilərimizdə növbədənkənar prezident seçkiləri uğurla təşkil olundu. Gözlənildiyi kimi, bu dəfə də xalqımızın seçimi qalib Prezident İlham Əliyev oldu. Mərkəzi Seçki Komissiyasının rəsmi məlumatlarına əsasən, İlham Əliyev seçicilərin 92 faizindən çoxunun səsini alaraq inamlı qələbə qazanıb. Bu seçki prosesi müstəqillik tariximizdə bir çox ilklərə imza atılmaqla da yadda qaldı.

### İLK DƏFƏ DOĞMA YURDLARINDA SƏS VERƏNLƏR

Öncə də qeyd edildiyi kimi, bu seçkiləri əvvəlki analoji proseslərdən fərqləndirən ən başlıca cəhət onun artıq ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş bir Azərbaycanda keçirilməsi idi. Üç il öncəyə qədər dünyada 20 faiz ərazisi 30 ildən artıq işğal olunmuş bir ölkə kimi tanınırdıqsa, indi vəziyyət tam başqadır. Seçkinin bütün suveren ərazilərimizdə təşkili həm də Azərbaycanın dünyada güclü, müstəqil və öz ərazi bütövlüyünü tam təmin etmiş bir ölkə olaraq imicinin yüksəlməsinə səbəb olub. İlk dəfə olaraq işğal dövründə yurdlarından didərgin düşmüş soydaşlarımız doğma el-obalarında səsvermə hüququndan istifadə etdilər. Böyük qayıdış çərçivəsində Laçında, Şuşada, Ağalıda, Talış kəndində, Füzulidə məskunlaşan minlərlə vətəndaşımızın seçkidə iştirakına beynəlxalq müşahidəçilər, dünyanın aparıcı media orqanları şahid oldular. Onlar həm də işğal dövrünün dağıntılarını, buna paralel olaraq qısa zamanda Azərbaycanın şəhərlərini, kəndlərini necə sürətlə bərpa etməsini əyani olaraq gördülər. Bu seçkilər həm də dünyaya bir daha Ermənistanla Azərbaycan arasındakı əsas fərqi göstərdi. Bir tərəfdə qurulanı dağıdan, ekoloji, maddi-mənəvi terror əsdirən, minalarla ölüm saçan bir dövlət. Digər tərəfdə isə quran, yaradan, yaşadan, özünün olana sonuna qədər sahib çıxan Azərbaycan.

### XANKƏNDİDƏ İLK SEÇKİ

Növbədənkənar seçkilərdə ən çox diqqəti cəlb edən məqamlardan biri də Prezident İlham Əliyevin səsvermə hüququndan Xankəndidə istifadə etməsi oldu. Bu addım həm siyasi, həm də mənəvi mahiyyət daşıyır. İllərlə bu şəhər terror, separatizm yuvası olaraq Azərbaycan dövlətinin milli maraqlarını, suverenliyini təhdid edib. Burada məskunlaşmış erməni separatçıları çoxsaylı “seçkilər” keçirərək dövlətimizi təhdid edib. Azərbaycan ərazisində “ikinci erməni dövləti”nin yaradılması ideyasının əsas qaynağı məhz Xankəndi olub. Xocalı soyqırımının, digər faciələrimizin törədilməsi ilə bağlı qərarlar məhz buradakı xunta rejiminin rəhbərliyi tərəfindən verilib. İndi bu qərarları verənlərin əksəriyyəti ədalət məhkəməsinin onlar üçün çıxaracağı hökmü Bakıda dəmir barmaqlılar arxasında gözləyir. Onlar Azərbaycan Prezidentinin Xankəndidə səs verməsini də oradan izləyirlər. Ali Baş Komandan Xankəndidə səsvermə hüququndan istifadə etməklə həm Ermənistandakı revanşistlərə, həm də onların arxasında dayanaraq dövlətimizə qarşı məkrli planlar quranlara birbaşa mesaj verdi: Qarabağ Azərbaycandır! Xankəndi Azərbaycandır! Artıq Azərbaycan ərazisində separatizm ocağı yoxdur. Azərbaycan Konstitusiyası, qanunlarımız dövlətimizin hər bir yerində tətbiq olunur. Biz dövlət olaraq bir daha müstəqilliyimizi, ərazi bütövlüyümüzü, suverenliyimizi, sərhədlərimizi təhdid edənlərin əl-qol açmasına imkan verməyəcəyik.

> “Qarabağ dastanından sonra Azərbaycan bir demokratiya dastanı yaşadı.”



### SEÇKİ GÜNÜNDƏ ZƏFƏR AB-HAVASI

7 fevral seçkilərini fərqləndirən cəhətlərdən biri də Vətən müharibəsindən sonra keçirilən ilk seçkilər olmasıdır. Bu prosesdə hər birimiz artıq məğlub, qüruru əyilmiş bir xalqın təmsilçisi kimi yox, qalib bir millətin, dövlətin vətəndaşı olaraq seçim etdik. Seçki günü yaşanan ab-hava, məntəqələrdə müşahidə etdiyimiz əhval-ruhiyyə insanların sanki mənəvi bir rahatlıq tapdığını, müharibənin, işğalın yaratdığı gərginliklərdən azad olduğunu göstərirdi. Təbii ki, əmin-amanlığın, qələbənin əsas memarı Prezident İlham Əliyevdir. İnsanların əksəriyyəti qalib ölkənin vətəndaşı olaraq qalib sərkərdəyə səs verdilər.

### YÜKSƏK SEÇKİ MƏDƏNİYYƏTİ

Növbədənkənar seçkilərin ölkənin daxili ictimai-siyasi həyatında da dərin iz buraxdığı şəksizdir. Prosesin başlanğıcından sonuna qədər seçki prosesi tam anlamda sivil, demokratik və yüksək siyasi mədəniyyət dəyərlərinin nümayiş olunduğu bir məcrada davam etdi. İstər təbliğat, istərsə də seçki günü namizədlərin bir-birinə qarşı etik çərçivələr, qanunvericiliyin tələblərinə uyğun formada mübarizə aparması diqqətlərdən yayınmadı. Ən başlıcası isə seçkilərin nəticələrinə, xalqın iradəsinə hər kəs hörmətlə yanaşdı. Məğlub olanlar qalibi təbrik edərək ona gələcək fəaliyyətində uğurlar arzuladılar. Əslində sivil, demokratik və hüquqi dövlətdə tələb olunan, arzulanan və cəmiyyətin gözlədiyi də budur. Azad, ədalətli və şəffaf seçkilər nəticəsində xalqın seçimi, iradəsi hər şeydən və hər kəsdən üstündür. Bu seçkilərlə bir daha dünyaya qalib xalq olmaqla yanaşı, yüksək siyasi mədəniyyətə sahib olduğumuzu da nümayiş etdirdik.

### AZƏRBAYCAN BİR DEMOKRATİYA DASTANI YAŞADI

Təbii ki, bizim üçün əsas olan Azərbaycan xalqının seçimidir, onun iradəsidir. Lakin növbədənkənar seçkilər bir daha bizə xalqımızın iradəsinin əks olunduğu bu prosesə beynəlxalq reaksiyaları müşahidə etmək imkanı qazandırdı. Seçkilərə bir həftə qalmış Avropa Şurası Parlament Assambleyası çərçivəsində Azərbaycana qarşı başlayan kampaniya fonunda beynəlxalq müşahidəçilərin dəyərləndirmələrinin necə olacağı maraq doğururdu. Gözlənildiyi kimi, ölkəmizdə bu prosesi izləyənlərin əksəriyyəti seçkilərin tam demokratik, şəffaf və qanunvericiliyə uyğun təşkil olunduğunu bəyan etdilər. “Seçim Azərbaycan xalqının iradəsini əks etdirir, biz nə deyə bilərik?” deyən müşahidəçilər də vardı. Bəli, bu seçki Azərbaycan xalqının iradəsidir. Ona hər hansı müdaxilə, təzyiq və ya manipulyasiyalar qətiyyən yolverilməzdir. Azərbaycan əhalisi seçki prosesində yüksək fəallıq nümayiş etdirərək öz Prezidentinə yüksək ehtiram göstərməklə bu iradəyə qarşı çıxmaq istəyənlərin qarşısına böyük bir sədd çəkdi.

Beynəlxalq müşahidəçi Akkan Suverin də dediyi kimi, “Qarabağ dastanından sonra Azərbaycan bir demokratiya dastanı yaşadı”.



## SEÇKİ DÜNYA MEDİASININ GÖZÜ İLƏ

Prosesə indi də dünya mediasının baxış bucağından baxaq. Qeyd edək ki, növbədənkənar seçkilər dünya mediasının da çox böyük diqqətində idi.

Rusiyanın “Lenta.ru” saytının seçkilərlə bağlı reportajında bildirilir ki, beynəlxalq ekspertlərin fikrincə, Azərbaycan cəmiyyətini çox narahat edən Qarabağ probleminin həllindən sonra İlham Əliyevin populyarlığı xeyli artıb. “Bunu nəşrimizin müxbirinin seçkilərə bir neçə gün qalmış Bakı küçələrində keçirdiyi sorğular da təsdiqləyib”, - məqalədə qeyd olunub. Rusiyalı jurnalistlər işğaldan azad edilmiş ərazilərdə seçki prosesini də izləyiblər.

“Bütün seçicilər bir nəfər kimi İlham Əliyevi açıq şəkildə dəstəkləyərək doğma torpaqlarına qayıtmaq imkanına, yeni evlərə görə ona təşəkkürlərini bildiriblər”, - deyə müəllif qeyd edir.

“Exit-poll”un nəticələrinə əsasən, Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində Prezident İlham Əliyev 93,9 faiz, Qarabağda isə demək olar ki, 100 faiz səs qazanıb”, - bu isə “Euronews” kanalının proseslə bağlı ilkin dəyərləndirməsidir. Qeyd edilib ki, bu, Azərbaycanın əvvəllər işğal olunmuş bütün torpaqlarını azad edib, ölkənin bütün suveren ərazisini tam nəzarətə götürməsindən sonra keçirilən ilk seçkilərdir: “Seçki komissiyası nümayəndələrinin sözlərinə görə, seçkidə fəallıq yüksək olub və səsvermənin ilk doqquz saatında səsvermə hüququna malik olanların 70 faizindən çoxu səs verib. Qarabağın tam azad edilməsi və müharibədə qazanılan qələbə hazırkı prezidentə ictimai dəstəyin səviyyəsini xeyli artırdı”.

Biz sadəcə iki müxtəlif qütbü təmsil edən medianın prosesə ümumi yanaşmasını təqdim etdik. Göründüyü kimi, mövcud mənzərə, reallıqlar o qədər aydındır ki, hansı düşərgəyə yaxın olmasından asılı olmayaraq, hər kəs bir məqamı etiraf etmək məcburiyyətindədir. Qalib Azərbaycan xalqının seçimi qalib Prezidentidir.

### YENİ DÖVR BAŞLAYIR

Bəli, artıq Azərbaycan daha bir demokratiya sınağını uğurla başa vurdu. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bir dövr başa çatdı. İndi dövlətimizin qarşısında yeni başlanğıclar, yeni bir yol var. Bu yol əldə etdiyimiz tarixi qələbələrin möhürünü vuraraq bütün sahələrdə qarşımıza qoyduğumuz yeni hədəflərə doğru inamla, qətiyyətlə irəliləməkdir. Bu yol müstəqil Azərbaycanın daha da güclənməsi, işğaldan azad edilmiş ərazilərimizin bərpası, keçmiş məcburi köçkün və qaçqınlarımızın öz evlərinə təhlükəsiz, rahat qayıdışı, suverenliyimizə, ərazi bütövlüyümüzə qarşı təhdidlərin bundan sonra da uğurla ortadan qaldırılması yoludur. Bu yol, bölgəmizdə sülh yoludur. Təbii ki, Azərbaycanın milli maraqlarına, şərtlərinə və tarixi qələbələrdən sonra yaratdığı yeni reallıqların tələblərinə uyğun bir sülh. Bu yolda hədəflərimizə çatmaq üçün rəhbər olaraq Azərbaycan xalqının seçimi müzəffər Ali Baş Komandan, qələbələrimizin memarı, adı ilə tarix yazan Prezident İlham Əliyevdir. Dövlət başçısının da vurğuladığı kimi, onun fəaliyyətinin əsas güc mənbəyi xalqının ona olan inamı və sevgisi, etimadıdır. Növbədənkənar prezident seçkiləri ilə xalqımız öz liderinə olan etimadını bir daha yenilədi. Xalq qalib liderinin arxasında bir yumruq kimi birləşdiyini bütün dünyaya nümayiş etdirdi. Təbii ki, yeni dövrə qədəm qoyarkən ölkə rəhbərliyinin əsas ilham qaynağı xalqından aldığı bu etimad olacaq. Beləliklə, müstəqillik tariximizdə yeni bir səhifə açılır. Bu səhifənin ağ vərəqlərini qızılı hərflərlə, uğur hekayələri ilə yazacağımıza inamımız sonsuzdur. Seçimin mübarək, Azərbaycan!

YOL KƏNARLARINDA AÇIQ ŞƏKİLDƏ SATILAN BELƏ QİDALAR CİDDİ RİSKLƏR YARADIR

# Ətri ilə insanları cəlb edən REAL TƏHLÜKƏ

Əksər yerlərdə peraşkilər boyat, köhnə məhsullardan hazırlanır. Məsələn, əgər kartof peraşkisi bişirilirsə, hər gün yeni kartof qaynadılmır, kartoflar əvvəlcədən soyulur, qaynadılır, soyuduculara yığılır. Alver kütləvi olmadığı üçün həmin kartoflar günlərlə soyuducuda qalır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bakıda yol kənarlarında, köşklərin yanında, insanların sıx olduğu küçələrdə peraşki satılan yerləri tez-tez görürük. Nəinki yerlər, şəhərin küçələrində bu yağlı qidanı plastik qablarda satanlara da rast gəlmək olur. Peraşki bir çox insanların ayaqüstü yediyi ucuz və doyumlu qida növüdür. Satılma şəraitinə baxmayaraq, bəh-bəhlə təriflәyənlər, dadından doymayanlar az deyil.

Bəs küçələrdə, toz-torpaqlı yerlərdə satılan peraşkilərin insan sağlamlığı üçün hansı riskləri var? Ümumiyyətlə, ziyanlıdırmı? Ən əsası, onlara nəzarət varmı?

### PERAŞKİLƏR BOYAT MƏHSULLARDAN HAZIRLANIR

Adının açıqlanmasını istəməyən aşpaz deyir ki, əksər yerlərdə peraşkilər boyat, köhnə məhsullardan hazırlanır: "Məsələn, əgər kartof peraşkisi bişirilirsə, hər gün yeni kartof qaynadılmır, kartoflar əvvəlcədən soyulur, qaynadılır, soyuduculara yığılır. Alver kütləvi olmadığı üçün həmin kartoflar günlərlə soyuducuda qalır. Peraşkinin xəmiri də eyni qaydada hazırlanır, boyat olur. Eyni yağdan dəfələrlə istifadə edilməsi isə, hər kəsə məlumdur".

### MALIN BAŞ ƏTİNİ ÇƏKİR, QİYMƏ HAZIRLAYIRLAR

Aşpaz deyir ki, ət peraşkisi kartofdan təhlükəlidir: "Qoca mal əti ucuz olur. Bununla yanaşı, adətən satılmayan ətlər dəyərindən ucuz verilir. Ən çox alınan isə malın baş əti olur. Malın baş ətini çəkir, qiymə hazırlayırlar. Məsələn, ətin qiyməti 10 manatdırsa, keyfiyyətsiz, satılmayan əti beş manata verirlər. Müəyyən yerlər var ki, qalmış ciyərlər satılır, onu alıb sirkəyə yatızdırır və istifadə edirlər. Ona görə də yol qırağında satılan peraşkilər keyfiyyətsiz və zərərli olur. Peraşkinin ətri elədir ki, hər kəsi özünə cəlb edir. Amma yedikdən sonra çox insan mədəsində o ağırlığı hiss edir. Barmaqla sayılacaq qədər az yerlər var ki, keyfiyyətli peraşki bişirirlər. Ona görə də insanlara peraşki alarkən satılan məkana, təmizliyinə baxıb almalarını məsləhət görürəm".

### HANSI QİDALAR TƏHLÜKƏLİDİR?

Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, yol kənarlarında, açıq havada satılan əksər qidaların bişirilməsində keyfiyyətli məhsullardan istifadə olunmur: "Belə qidalar insan sağlamlığı üçün yararsız olan və ciddi fəsadlar törədən yağlarla bişirilir. Bu təhlükə daha çox peraşki, blinçik, ponçik kimi qızartma məhsullarda var. Çünki bu məhsullar qızardılarkən istifadə olunan yağlar atılmır, təkrar istifadə olunur. Hətta bişirilən qablar təmizlənmədən növbəti günün məhsulları da o qabda hazırlanır".

Mütəxəssis deyir ki, belə məhsulların açıq havada, açıq şəkildə satılması ikinci problemdir: "Çünki açıq satılan məhsullar külək vasitəsilə fiziki çirklənməyə məruz qalırlar. Ona görə də bu kimi qidaların qəbulu çox təhlükəlidir".

## SÜRÜCÜLƏRİN SEVİMLİ QİDASI

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə deyir ki, peraşkilər açıq havada əvvəlki kimi, kütləvi şəkildə satılmır: "Əsasən avtobus dayanacaqlarında tez-tez satılırdı. Ən çox da avtobus sürücülərinin sevimli qidası idi. Peraşki elə bir qida növüdür ki, ətri ilə insanları cəlb edir. Uzun müddət idi ki, peraşki biznesi ölkədə məşhur idi. Amma getdikcə, sayı azalır. Bu, çox yaxşı haldır. Hazırda şəhər mərkəzindən kənarda, rayonlarda peraşkilər yol kənarında satılır".

### TESTER KAĞIZLARDAN İSTİFADƏ OLUNMALIDIR

Birlik sədri də vurğulayır ki, yol qırağında satılan peraşkilər insanların sağlamlığı üçün kifayət qədər zərərlidir: "Bu peraşkilər eyni yağın içində dəfələrlə qızardıldığı üçün, o yağların tərkibi dəyişir və trans yağlara çevrilir. Bu yağlar da insanda xərçəng, mədə-bağırsaq, ürək-damar xəstəliklərini yaradır və inkişaf etdirir. Bu bizneslə məşğul olanlar yağın tərkibini müəyyən etmək üçün xüsusi tester kağızlarından istifadə etməlidirlər. Əgər yağın tərkibi dəyişibsə, həmin tester kağızlarını yağa batırdıqda rəngini dəyişir. Bu zaman o yağdan istifadə etmək olmaz. Amma Azərbaycanda hansı peraşki satılan yerlərdə bu kağızlardan istifadə olunur? Bu qidanı bişirib əhaliyə satmaq, əlbəttə ki, insanların sağlamlığında ciddi izlər qoyur".

### NƏZARƏT DƏ AŞAĞI SƏVİYYƏDƏDİR

Həmsöhbətimiz iddia edir ki, yol qırağında satılan peraşkilərə nəzarət də aşağı səviyyədədir: "Bu bizneslə məşğul olanlar Azərbaycan hökumətinin biznes qurmaq üçün yaratdığı rahat şəraitdən sui-istifadə edirlər. İnsanlar tədricən zəhərlənir, xəstəliklərə yoluxurlar. İnsanlara səslənirəm ki, əgər canlarının qədrini bilirlərsə, belə yerlərdən mal alıb istehlak etməsinlər".

### ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATINDAN TÖVSİYƏ

Məlumat üçün bildirək ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hər il yarım milyon insanın vaxtından əvvəl ölümünə səbəb olan toksik süni kimyəvi maddələr - trans yağlardan hazırlanmış qablaşdırılmış yeməklər, çörək məhsulları və kulinariya yağları kimi tez-tez rast gəlinən məhsulların tamamilə ləğvinə çağırıb. ÜST-dən bildirilib ki, trans yağların istehlakı nəticəsində ürək-damar xəstəliklərindən ən çox ölüm hallarının qeydə alındığı 16 ölkədən doqquzunda profilaktika siyasəti düzgün həyata keçirilmir. Bu ölkələrə Avstraliya, Azərbaycan, Butan, Ekvador, Misir, İran, Nepal, Pakistan və Cənubi Koreya daxildir.




Məhsəti Hüseynova

Eyyub Hüseynov

Fotolar: Rüfət Mikayılov / Global Media Group



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



# QEYDİYYAT MƏSƏLƏSİ HƏLLİNİ TAPIR

Artıq qeydiyyatı olmayan vətəndaşlar "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər. Hətta evinin çıxarışı olmayanlar belə, əllərində olan müvafiq sənədləri təqdim etməklə qeydiyyata alınırlar.

Bakıda insanların qeydiyyatı ilə bağlı problemlər illərdir ki, bitmir. Ötən ildən daimi qeydiyyatı olmayanlar qanuna uyğun olaraq cərimələnsə də, bu problemin həlli yolu deyil. Çünki paytaxtda sənədsiz evlərin çox olması, "kupça"sız yeni tikililər, müqaviləsiz verilən kirayə evlər vəziyyəti qəlizləşdirir.

Məlumdur ki, bir neçə il öncəsinə qədər, Bakıda yaşayan vətəndaşlar yaşadığı əraziyə məsul olan polis orqanlarında qeydiyyata düşə bilirdilər. Ötən ilin yanvar ayından etibarən, Daxili İşlər Nazirliyi (DİN) tərəfindən vaxtilə polis orqanlarında qeydiyyata düşmüş vətəndaşların əksəriyyəti qeydiyyatdan çıxarılıb.

Bəs hazırkı vəziyyət necədir? Vətəndaşın qeydiyyat məsələsi necə həll olunmalıdır? Bakıda işləyib sənədsiz evlərdə, yaxud kirayə mənzillərdə məskunlaşan əhali nə etməlidir? Əvvəlcə məsələnin hüquqi tərəflərinə nəzər salaq.

### QEYDİYYATSIZ YAŞAMAQ HÜQUQİ BAXIMDAN DOĞRU DEYİL

Hüquqşünas Sabir Qəniyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, qanuna əsasən, müəyyən ərazidə qeydiyyatsız yaşamaq hüquqi baxımdan doğru deyil. Vətəndaş yaşadığı yer üzrə qeydiyyatda düşmürsə və yaxud qeydiyyata alınma qaydalarını pozursa, o zaman o, İnzibati Xətalar Məcəlləsinin 563.1-ci maddəsi ilə cərimə olunur: "Qanuna əsasən, daimi yaşayış ünvanından kənarda yaşayan şəxsə xəbərdarlıq edilir və ya otuz manat məbləğində cərimə olunur. Əgər vətəndaş heç bir yerdə qeydiyyatda deyilsə, onun şəxsiyyət vəsiqəsi qüvvədə olmamış hesab olunur. Həmin şəxs etibarnamə verə, alqı-satqı edə, notarial əməliyyatlar apara, şəxsiyyət vəsiqəsi aktiv olmadığı üçün nikaha daxil ola, hətta nikaha xitam da verə bilmir".

### NOTARİAT PALATASI MEXANİZM MÜƏYYƏNLƏŞDİRMƏLİDİR

Hüquqşünasın da açıqlaması təsdiqləyir ki, qanun qeydiyyatı olmayan vətəndaşın hüquqlarını məhdudlaşdırır. Bəs kirayədə yaşayan minlərlə vətəndaşı əgər ev sahibi qeydiyyata almırsa, onlar nə etməlidirlər?

Həmsöhbətimiz deyir ki, əgər ev sahibi vətəndaşı qeydiyyata alarsa, həmin vətəndaşın mənzildən yalnız istifadə hüququ yaranır: "Bu barədə tövsiyəm ondan ibarətdir ki, notarial qaydada kirayə müqaviləsi bağlanarkən, notariuslar kirayəyə verənlərdən kirayəçilərini qeydiyyata almalarını tələb etsinlər. Yəni notariuslar yalnız bundan sonra kirayə müqavilələrini rəsmiləşdirsinlər. Azərbaycan Notariat Palatası məsələnin həlli üçün mexanizm müəyyənləşdirməlidir".

## KİRAYƏÇİLƏRİN QEYDİYYATDAN ÇIXARILMASI PROSEDURU SADƏLƏŞDİRİLMƏLİDİR

Məlumdur ki, ev sahiblərinin kirayə verdikləri evdə vətəndaşı qeydiyyata almaqla bağlı narahatlıqları kirayəçinin mülk üzərində hüququnun olması ilə bağlıdır. Məhz o səbəbdən bir çox kirayə verən kirayəçilərini qeydiyyata almaqdan çəkinir. Hüquqşünas deyir ki, ev sahibi qeydiyyatda olan şəxsi yalnız məhkəmə ilə çıxara bilər: "Məhkəməsiz inzibati qaydada şəxs qeydiyyatdan çıxarıla bilməz. Şəxs özü başqa ünvana qeydiyyata düşməlidir ki, həmin ünvandan qeydiyyatdan çıxmış sayılsın. Kirayə mənzillərdə yaşayan şəxslərin qeydiyyatdan çıxarılması məsələsi sadələşdirilməlidir. Qanunvericilikdə elə bir mexanizm müəyyən edilməlidir ki, kirayə müqaviləsinin xitamı nə kirayə vereni, nə də kirayəçini narahat etsin".

**Qanun qeydiyyatı olmayan vətəndaşın hüquqlarını məhdudlaşdırır**

### ÇIXARIŞI OLMAYAN EVLƏRDƏ QEYDİYYAT MÜMKÜNDÜRMÜ?

Yuxarıda da qeyd etdiyimiz kimi, hələ də minlərlə sakin çıxarışsız mənzillərdə yaşayır və bu mənzillərdə vətəndaşların qeydiyyata alınması prosesi tam olaraq həll olunmayıb.

Hüquqşünas deyir ki, sənədsiz evlərin mövcudluğu həm fərdi şəxslər, həm də bələdiyyələr üçün problemlər yaradır: "Çıxarışların olmaması mənzil sahibləri və onların ailə üzvlərini həmin ünvanlarda qeydiyyata alınmaq imkanından məhrum edir. Bu hal faktiki qeydiyyat ünvanından kənar, lakin şəxsi mülkiyyətdə olan çıxarışsız mənzillərdə yaşayan şəxslərin İnzibati Xətalar Məcəlləsinin 563.1-ci maddəsi ilə cərimə edilməsi riskini də labüd edir. Tövsiyə kimi qeyd edə bilərəm ki, tikintisi başa çatmayan, lakin yaşayış olan binalarda Mülki Məcəllənin 147-ci maddəsinin müddəaları ilə təminat qeydi alınarkən mülkiyyətçilərin və onların ailə üzvlərinin müvəqqəti qeydiyyata alınması imkanın yaradılması təmin oluna bilər. Bu, vətəndaşların qeydiyyat problemini keçici olsa da aradan qaldıra bilər".



Sabir Qəniyev



Elnur Fərzəliyev

## "ASAN XİDMƏT" MƏRKƏZLƏRİNƏ MÜRACİƏT EDƏ BİLƏRSİNİZ

Əmlak eksperti Elnur Fərzəliyev isə deyir ki, artıq insanlar "ASAN xidmət" mərkəzlərində, rahatlıqla qeydiyyat problemlərini həll edə bilərlər: "Ölkəmizin böyük şəhərlərində, xüsusilə də paytaxt Bakı və Abşeron rayonu ərazilərində yüz minlərlə çıxarışı olmayan fərdi həyət evləri var. Hazırda bu məsələ həllini tapmaq üzrədir. Artıq qeydiyyatı olmayan vətəndaşlar "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər. Hətta evinin çıxarışı olmayanlar belə, əlində olan müvafiq sənədləri təqdim edir, araşdırma aparılır, araşdırma yekunlaşdıqdan sonra həmin vətəndaş müvafiq qaydada qeydiyyata alınır. Əgər vətəndaşın heç bir əmlakı yoxdursa, yenə "ASAN xidmət" mərkəzinə müraciət edir, araşdırma aparılır, araşdırma yekunlaşdıqdan sonra vətəndaş ərazi üzrə polis şöbəsinə qeydiyyata alınır".

### QEYDİYYAT MƏSƏLƏLƏRİ İLƏ BAĞLI TƏDBİRLƏR GÖRÜLÜR

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən də bildirilib ki, vətəndaşlar yaşayış yeri üzrə qeydiyyat məsələləri ilə bağlı "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər. Qeydiyyat məsələləri ilə yanaşı, şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən, 18 yaşı tamam olan vətəndaşların yeni sənədlərlə bağlı müraciətləri qəbul edilir, müəyyən edilən müddət ərzində sorğular cavablandırılır. Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşların bütün müraciətləri diqqətdə saxlanılmaqla qanunamüvafiq tədbirlərin görülməsi təmin edilir.

# SOCAR-dan vətəndaşlara çağırış

Aparılan araşdırmalar və müraciətlər nəticəsində vətəndaşlara edilən zənglərin əsasən, müxtəlif xarici ölkələrin mobil operatorlarına məxsus nömrələr vasitəsilə edildiyi müəyyən olunub.

Son zamanlar Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) adından istifadə olunaraq, maddi maraq qarşılığında hüquqi və fiziki şəxslərə fərdi və korporativ qaydada əməkdaşlıq, xüsusən investisiya yatırma imkanları, o cümlədən saxta istiqrazların alınması, işə düzəltmə və s. ilə bağlı müxtəlif təkliflər edilir. Bu cür dələduzluq halları müxtəlif internet kanalları, sosial media platformaları, mobil tətbiqlər, elektron ünvan və ya telefon zəngləri vasitəsilə həyata keçirilir. "Report" xəbər verir ki, bu barədə SOCAR-ın açıqlamasında bildirilir.

**DƏLƏDUZLUQ HALLARININ SAYI AZALIB**

"Ötən müddət ərzində görülən işlər, aparılan məlumatlandırma tədbirləri nəticəsində dələduzluq hallarının sayında kifayət qədər azalma müşahidə olunsa da, son həftələr bu tip saxta məlumatlarla ("fake news") bağlı kampaniyalarda yenidən aktivlik müşahidə olunur", - deyə açıqlamada bildirilir.

SOCAR bu cür hallarla mübarizə məqsədilə müvafiq dövlət qurumları ilə birgə səmərəli fəaliyyət həyata keçirir. İctimaiyyəti mütəmadi olaraq məlumatlandırmaq məqsədilə hazırlanan informasiyalar ölkəmizin media resurslarında dərc olunur.

Eyni zamanda, SOCAR-ın sosial şəbəkə hesablarında dələduzluq hallarına qarşı təbliğat aparılır.

**FAKTLAR DİN-Ə TƏQDİM OLUNUR**

SOCAR-a bu məsələ ilə bağlı vətəndaşlardan telefon, elektron poçt, sosial şəbəkələr vasitəsilə daxil olan müraciətlər, həmçinin sosial şəbəkələrin monitorinqi zamanı müəyyən edilən faktlar toplanaraq Daxili İşlər Nazirliyinə (DİN) təqdim olunur.

Məsələ ilə bağlı vətəndaşlar tərəfindən SOCAR-a edilən müraciətlər dərhal cavablandırılır, dələduzluq halları ilə bağlı ətraflı məlumat verilir, ayıq-sayıq olmaları tövsiyə edilir. Ötən müddət ərzində məsələ ilə bağlı SOCAR tərəfindən 60-dan çox vətəndaş müraciəti cavablandırılıb. Aparılan araşdırmalar və müraciətlər nəticəsində vətəndaşlara edilən zənglərin əsasən, müxtəlif xarici ölkələrin mobil operatorlarına məxsus nömrələr vasitəsilə edildiyi müəyyən olunub.

Eyni zamanda, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə edilən əməkdaşlıq nəticəsində SOCAR adından saxta investisiya kampaniyaları ilə bağlı mobil tətbiqlərin silinməsinə nail olunub. Bu istiqamətdə iş mütəmadi olaraq davam etdirilir.

**EHTİYATLI OLUN!**

"Vətəndaşlarımızı heç bir əsası olmayan bu cür məlumatlara inanmamağa, bu kimi hallara qarşı ehtiyatlı və ayıq-sayıq olmağa çağırır, yalnız rəsmi mənbələrdə yer alan informasiyalara istinad olunmasını xahiş edirik.

Eyni zamanda, vətəndaşlarımızdan sözügedən hallarla qarşılaşdıqda dərhal müvafiq hüquq-mühafizə orqanlarına müraciət etmələri və məlumatları press@socar.az ünvanına göndərmələri xahiş olunur.

Sonda vətəndaşları aldadıb, etibarından sui-istifadə edib, onların əmlakını, əmlak hüquqlarını və fərdi məlumatlarını ələ keçirən, SOCAR-ın işgüzar nüfuzuna zərər vuran şəxslərin diqqətinə bir daha çatdırırıq ki, qeyd edilən əməllər, onları törədən şəxslərin məsuliyyətə cəlb olunması və cəzalandırılması üçün əsas yaradır", - deyə açıqlamada qeyd olunub.






# İyirmi beş erkən nikahın qarşısı alınıb

Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi istiqamətində 2666 nəfərin iştirakı ilə 15 təlim və seminar keçirilib. 8336 nəfər rayonlarda yaradılan Qadın Resurs mərkəzlərinin xidmətlərindən bəhrələnib. Uşaq hüquqlarının qorunması, uşaq iştirakçılığının artırılması, cəmiyyətdə baş verən mənfi hallardan onların müdafiəsi, erkən nikah və uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması və digər istiqamətlər üzrə keçən il ərzində 13 min 434 nəfərin iştirakı ilə 162 təlim, seminar və konfrans təşkil olunub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Bahar Muradova komitənin 2023-cü il fəaliyyətinin yekunlarına həsr olunmuş brifinqdə deyib.

B.Muradova qeyd edib ki, komitənin nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək mərkəzlərinin fəaliyyətindən 32 min 399 nəfər yararlanıb. Eyni zamanda, 33 min 43 nəfərdən 3096 müraciət daxil olub və onlardan 1224-ü təmin edilib, digərləri isə aidiyyəti üzrə yönləndirilib. Həmçinin 2023-cü il ərzində erkən nikah hadisəsi ilə bağlı 29 fakt üzrə monitorinq-ailə səfərləri təşkil edilib, 25 erkən nikah halının qarşısı alınıb.

B.Muradova, həmçinin, vurğulayıb ki, qurumun mövcud "Qadın Dəstək Xətti"nə 4079, "Uşaq Qaynar Xətti"nə 4453, Gender əsaslı zorakılıqla bağlı Dəstək xəttinə 302 müraciət daxil olub. Bu müraciətlərin əksəriyyəti hüquqi yardımla bağlı olub və hər biri təmin edilib.

# Bakcell Qarabağda xidmət mərkəzlərinin sayını artıracaq

İnnovativ texnologiyalar sahəsində daim inkişaf edərək yenilikləri abunəçilərinə təqdim edən Bakcell şirkəti Qarabağ bölgəsində öz strateji genişlənmə planlarını elan edib. Belə ki, şirkətdən verilən məlumata əsasən, Bakcell regionda xidmət mərkəzlərinin sayını 10-a çatdıracaq.

"Bu genişlənmənin əsas məqsədi regionda yaşayan vətəndaşlarımız ilə əlaqələrimizi daha da gücləndirmək, onlara ən son innovativ texnologiyaları təqdim etməkdir", - deyə şirkətdən bildirilib.

Xatırladaq ki, Bakcell ötən il Qarabağ bölgəsində ən müasir səs texnologiyası olan VoLTE xidmətini və ölkənin ən sürətli mobil internet şəbəkəsini öz abunəçilərinin ixtiyarına verib. Həmçinin, regionda baza stansiyalarının sayını 120-dən yuxarıya çatdırıb.

Bakcell zəruri infrastrukturun qurulması istiqamətində, eləcə də ən son texnologiyaların regiona gətirilməsində genişmiqyaslı fəaliyyətini daha da gücləndirəcək.

Həyata keçirilən layihələr NEQSOL Holding-in Azərbaycanın Qarabağ regionunda ümumilikdə 200 milyon manatadək sərmayə yatırmaq planlarının bir hissəsidir.

Bakcell şirkəti NEQSOL Holding-in tərkibinə daxildir.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Laləa Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 320
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BAKI-SUMQAYIT YOLU İLƏ BAĞLI DAHA HANSI TƏDBİRLƏR GÖRÜLMƏLİDİR?

# ƏN TIXACLI YOLUN BİTMƏYƏN PROBLEMİ

Bakı-Sumqayıt yolundakı tıxac probleminin həlli istiqamətində mühüm addımlar atılır. Lakin ekspertlər məsələnin kompleks həlli üçün bir sıra əlavə addımların atılmasını da vacib sayırlar.












ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu gün ən çox tıxac probleminin hiss edildiyi istiqamətlərdən biri, bəlkə də birincisi Bakı-Sumqayıt yoludur. Tıxac probleminin həlli istiqamətində müəyyən tədbirlər görülüb və proses davam edir. Sumqayıtı Bakı ilə birləşdirən sürət qatarı mövcuddur. Avtobuslar üçün yeni zolaq çəkilib. Həmçinin yanvarın 21-dən Sumqayıtdan Bakıya - metronun "Avtovağzal" stansiyasına ekspress avtobuslar gəlir. Lakin problem hələ də tam olaraq həllinin tapmayıb. İnsanlar yollarda sıxlıq olmasından narazıdırlar. Bəs bu problemin həlli üçün daha nələr edilə bilər?

### QATARLARIN SAYI ARTIRILMALIDIR

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev "Kaspi"yə açıqlamasında bildirdi ki, bu məsələ kompleks şəkildə həll olunmalıdır: "İntensivliyi artırmağa ehtiyac var. Bakı ilə Sumqayıt arasında dəmir yolu mövcuddur, hazırda xətt üzrə yeddi qatar hərəkət edir. Altı qatarın da gəlməsi nəzərdə tutulub. Həmçinin stansiyaların sayını artırmaq planlaşdırılır. Amma qatarların sayını yenə də artırmağa ehtiyac var".

## NƏZARƏT TƏDBİRLƏRİ SƏRTLƏŞDİRİLMƏLİDİR

R.Ağamirzəyev qeyd etdi ki, hələ ekspress avtobuslar yenidir: "Mövcud qanunvericiliyə görə, avtovağzaldan avtovağzala prinsipi tətbiq olunur. Çünki Sumqayıt ayrıca bir şəhərdir. Ona görə şəhərin digər nöqtələrinə hərəkəti mümkün deyil. İnsanlar manatlıq taksilərə alışıb. Onları daha rahat və təhlükəsiz olan avtobusa yönləndirmək üçün təbliğatı aparılmalıdır. Çünki manatlıq taksilər tıxaca mənfi təsir göstərir".

### BAŞ PLANDA BU NÜANSLAR VAR

Müsahibimiz düşünür ki, bu məsələlər zamanla öz həllini tapacaq: "İkinci mərhələ relsli nəqliyyat - tramvayın çəkilməsi, şəhərətrafı elektrik qatarının şəhərdə fərqli nöqtələrdə yeni stansiyalarının açılmasıdır. Bakının yeni təsdiqlənən Baş planında bu nüanslar var. Həmçinin daşıyıcıların vəziyyətinin yaxşılaşdırılması yönündə brutto xərc müqavilələrinə keçilməlidir. Ekspress avtobuslarda tariflər müəyyən olunub. Amma biznes modeli dəyişməlidir. Bu da hər kilometrə görə subsidiya ayrılması deməkdir. Bunları mərhələli şəkildə həll etməklə bugünkü mürəkkəb vəziyyəti müsbətə doğru dəyişmək mümkündür".

R.Ağamirzəyev bildirdi ki, Bakı-Sumqayıt yolunu düzəltmək üçün şəhər girişlərini də nizamlamaq lazımdır: "Bakı-Sumqayıt yolu, xüsusən də Xırdalana qədər olan yol həm də şimal sərhədinə tərəf getmək üçün istifadə edilir. Ona görə hərəkət edənlər tək Bakı, Xırdalan, Sumqayıt əhalisi deyil. Bu da nəqliyyat axınına təsir edir. Bakıya daxil olmağa da nəzarət etmək lazımdır. Şəhərin girişlərində parkinq nöqtələri qurulmalıdır ki, insanlar avtomobillə gəlsə də, park edib ictimai nəqliyyata yönəlsin".




Nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev isə məsələnin həllini nəzarət kameralarında görür: "Avtobus zolaqlarında kamera ilə müşahidə edilməyən nöqtələr var, həmin kor nöqtələrdə avtomobillər zolaqlara daxil olurlar. Qəsəbələrə, kəndlərə döndükdə problemlər yaşanır. Bunun üçün də kameraları artırmaq və nəzarəti gücləndirmək lazımdır. Elə olmalıdır ki, polis nəzarət etmədikdə də problem yaranmasın".

## İNSANLAR AVTOMOBİLLƏ DAHA SÜRƏTLƏ GEDİR

Y.Mustafayev dedi ki, insanları taksilərə möhtac qoymamalıyıq: "İctimai nəqliyyatın işini optimallaşdırmasaq, yenə də bir manatlıq taksilər öz effektivliyini saxlayacaq. Çünki vətəndaş baxır ki, avtobusla gedəndə vaxt itirəcək, tıxacda ilişib qalacaqsa, həmin yolu taksidə oturaraq rahat şəkildə getməyə üstünlük verir. İnsanlar fərdi avtomobillə də, avtobusla da eyni vaxta gedir. Hətta avtomobillə daha sürətlə gedir, çünki avtobus dayanacaqlarda dayanır. Əgər hər iki halda tıxacda qalacaqsa, şəxsi avtomobilə üstünlük verirlər. Buna görə də hər gün avtomobil alan insanların sayı artır".

Müsahibimiz avtobusların Bakı daxilində hərəkət etməsi fikrinə də münasibət bildirdi: "Ekspress avtobusların şəhərə daxil olması hazırda mümkün deyil. Amma gələcəkdə 20 Yanvar, "Şamaxinka" və digər istiqamətlərdə də avtobus zolaqları və digər infrastruktur yaradıldıqdan sonra artıq şəhərə daxil ola bilərlər. Yaxud da avtovağzaldan insanları şəhərə aparan avtobuslar təyin edilər".

### YEDDİ MİLYON SƏRNİŞİN DAŞINIB

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyi şöbəsinin rəisi Sənubər Nəzərovanın sözlərinə görə, insanlar Bakı-Sumqayıt yolunda tıxaca düşməmək üçün qatarla hərəkət edir və belə sərnişinlərin sayı hər il daha da artır: "Hazırda doqquz qatarımız var. Yeni qatarlar sifariş etmişik. 10 qatar bu il çatdırılacaq. Artıq dördü çatdırılıb. altı yeni qatar da gələcək. Test edildikdən sonra dövriyyəyə buraxılacaq. Sərnişin sayı getdikcə artır. Keçən il yeddi milyon sərnişin daşınıb. 2022-ci ildə 5,2 milyon idi. Deməli, sərnişinlər xidmətdən razıdır. Çünki sərnişin tıxaca düşmədən, yolda heç bir maneə və ya təhlükə ilə qarşılaşmadan Bakıya rahat gəlib çatır".



# QADINLARI SEVƏN XƏSTƏLİK



Revmatoid artrit ən çox rast gəlinən iltihablı oynaq xəstəliyidir. Müalicə edilməzsə, xəstəlik inkişaf edir, daxili orqanlarla yanaşı, oynaqlara da təsir edir. Oynaqlarda ağrı, şişkinlik, temperaturun artması, qızartı və hərəkətdə çətinlik kimi şikayətlərlə başlayır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Havaların soyuması ilə revmatizm (kəskin revmatizmal qızdırma) xəstələrinin çətin günləri başlayır. Oynaq ağrılarından şikayətlər çoxalır, xəstələrin həyat keyfiyyəti aşağı düşür. Narahatedici məqam isə odur ki, bu xəstəlik xeyli cavanlaşıb. Əvvəllər oynaq ağrıları ilə bağlı şikayətləri yaşlı nəsildən eşidirdiksə, indi gənclərdə də bu xəstəliyin simptomlarına tez-tez təsadüf edilir. Bəs son vaxtlar revmatizmin geniş yayılmasının və cavanlaşmasının səbəbi nədir?

### BÜTÜN OYNAQ ŞİKAYƏTLƏRİ REVMATİZM DEYİL

Həkim-revmatoloq Aysel Ağalarova "Kaspi" qəzetinə bildirib ki, havada rütubətin çoxalması bəzi insanlarda sümük-oynaq şikayətlərinə səbəb ola bilər. Amma bütün oynaq şikayətləri revmatizm deyil: "Havanın temperaturu soyuduqda, xarici atmosfer təzyiqi aşağı düşür. Oynaq boşluğundakı təzyiqlə xarici atmosfer təzyiqi uyğun gəlmədiyinə görə, oynaqlar ağrımağa başlayır. Məsələn, revmatoloji xəstəliklərdən revmatoid artrit, osteoartrit (oynaq duzlaşması) kimi xəstələrdə bu şikayətlər daha çox olur. Amma bu əlamətlər həqiqi revmatoloji xəstəliyin olduğunu göstərmir. Bir qrup insan da var ki, onlarda heç bir iltihabı revmatoloji xəstəlik yoxdur, ancaq onlar meteoroloji faktorlara, hava dəyişikliyinə həssas olduqları üçün bu ağrıları hiss edirlər. Onlar revmatoloji xəstə yox, daha çox meteohəssas insanlar kimi nəzarətdə qalmalıdır və aktiv revmatoloji müalicə almalarına ehtiyac yoxdur".

### BİR YAŞINDA UŞAQDA DA RAST GƏLİNƏ BİLƏR

Revmatizmin son vaxtlar geniş yayılması və cavanlaşmasının səbəblərinə gəldikdə, həkim vurğulayır ki, əslində, bu xəstəliyin yaşı yoxdur: "Bir yaşında uşaqda da rast gələ bilər, 70 yaşında qocada da. Ancaq bəzi revmatoloji xəstəliklərin rast gəlmə tezliyi dəyişir. Məsələn, elə revmatoloji xəstəliklər var ki, onlar daha çox gəncləri hədəf alır və aqressiv gedişli olurlar. Oynaq duzlaşmasına isə daha çox yaşlı insanlarda rast gəlinir".

### HİCAMA VƏ ZƏLİ PROSEDURLARI REVMATİZMİ AQRESSİVLƏŞDİRİR

Sirr deyil ki, revmatoloji xəstələrin əksəriyyəti bu xəstəliyi türkəçarə üsulu ilə sağaltmağa çalışırlar. Kimisi vanna qəbul edir, kimisi bitkilərdən dərman düzəldir. Həkim bu müalicə üsulunun əleyhinədir: "Əgər xəstədə hər hansı ciddi iltihabı revmatoloji xəstəlik varsa, türkəçarələr nəinki onu sağaldır, hətta xəstənin vəziyyətinin ağırlaşmasına səbəb olur. Ona görə də bütün xəstələrə türkəçarə metodlarından uzaq durmağı məsləhət görürəm. Gün ərzində müayinə etdiyimiz xəstələrdə ağırlaşmalar əsasən bu səbəblərdən olur. Xüsusilə də son zamanlar ən çox yayılan hicama, zəli prosedurları xəstəliyi ciddi şəkildə inkişaf etdirir, aqressivləşdirir. Bəli, müəyyən fizioterapevtik prosedurlar var ki, biz xəstəyə onları təyin edirik. Onlar ancaq həkim nəzarəti altında müəyyən diaqnoz təsdiqləndikdən və qan nəticələri istənildikdən sonra məsləhət görülə bilər".

### REVMATİZM ƏLİLLİYƏ SƏBƏB OLUR

Müalicəsi düzgün aparılmadıqda, revmatizm əlilliyə səbəb olur. Revmatoloq həkim deyir ki, Azərbaycandakı revmatoloji xəstələrin 60-70 faizi düzgün diaqnozun qoyulmaması nəticəsində əllilik dərəcəsinə çatanlardır: "Belə xəstələrdə bütün ağırlaşmaları müşahidə edirik. Hər iki əllərdə, dizlərdə, pəncədə, aşağı ətraflarda bütün oynaqlarda deformasiyalar başlayır və fiziki məhdudiyyətin yaranmasına qədər gətirib çıxarır. Xəstə özünə qulluğu tamamilə itirir".

Həkimin sözlərinə görə, Azərbaycanda müəyyən bölgələr var ki, orada revmatoloji xəstəliklərin sıxlığı daha çoxdur: "Öz təcrübəmdən deyə bilərəm ki, hazırda Qəbələ, Qax, Şəki, Oğuz rayonlarından revmatizmli xəstələrə daha çox rast gəlinir. Burada artiomlu xəstəliklərin əmələ gəlmə sıxlığı daha çoxdur".



Aysel Ağalarova

## PƏHRİZ MÜTLƏQDİR?

Bəzi xəstəliklər var ki, onunla mübarizə aparmaq üçün pəhriz mütləqdir. Revmatoloji xəstəliklərdə də pəhrizə ehtiyac olur. Həkim vurğulayır ki, padaqra xəstəliyi tez-tez ət yeməklərindən istifadə edən insanlarda yaranır: "Revmatoloji xəstəliklərin hamısında qidalanmanın az da olsa yeri var. Məsələn, hamının tanıdığı padaqra xəstəliyinə daha çox ət, spirtli içki istifadə edən insanlarda rast gəlinir".

### YAĞIŞIN YAĞACAĞINI ƏVVƏLCƏDƏN HİSS EDƏ BİLİRLƏRMİ?

Dəfələrlə "dizim ağrıyır, yağış yağacaq" kimi ifadələrin şahidi oluruq. Hətta bu ifadələr məşhur filmlərdə də qeyd edilib. Həqiqətən revmatizmli xəstələr yağışın yağacağını əvvəlcədən hiss edə bilirlərmi?

Həkim qeyd edir ki, revmatizmli xəstələrdə meteohəssaslıq normal insanlara görə daha yüksək olur: "Həqiqi revmatoloji xəstələr havanın rütubətinin və temperaturunun dəyişməsini əvvəlcədən hiss edə bilər. Amma bununla yanaşı, revmatizmlə bağlı xəstəliyi olmayan meteohəssas insanlar var ki, rütubətin dəyişməsini 5-6 saat əvvəldən hiss edirlər. Bu, həmin insanın mütləq revmatizminin olduğunu göstərmir. Hər bir halda xəstənin sümük, oynaq şikayəti varsa, yağış yağmazdan öncə hiss edirsə, revmotoloqa müraciət etməlidir. Üstəlik, klinikada icbari sığorta ilə revmatoloji müayinələr pulsuzdur".

## "QADINLARDA KİŞİLƏRƏ NİSBƏTƏN ÜÇ DƏFƏ ÇOX RAST GƏLİNİR"



Ortopediya və Travmatologiya mütəxəssisi İlhan Dəmiryılmaz isə deyir ki, revmatizm ən çox qadınları və stressi sevir: "Revmatoid artrit ən çox rast gəlinən iltihablı oynaq xəstəliyidir. Müalicə edilməzsə, inkişaf edir, daxili orqanlarla yanaşı, oynaqlara da təsir edir. Oynaqlarda ağrı, şişkinlik, temperaturun artması, qızartı və hərəkətdə çətinlik kimi şikayətlərlə başlayır. Xəstəliyin aktiv mərhələlərində yorğunluq və yüngül qızdırma kimi ümumi simptomlar ola bilər. Gecə və ya səhər oynaqlarda ağrı, hərəkətdə çətinlik yaranır, sonra hərəkət etdikcə tədricən açılır. Ağrı şiddətindən asılı olaraq gün ərzində davam edə bilər. Barmaqlar və biləklər ən çox təsirlənən oynaqlardır. Bu, adətən gənc və orta yaşlı insanların xəstəliyidir. Qadınlarda kişilərə nisbətən üç dəfə çox rast gəlinir".



# ONUN ŞEİRLƏRİ MUSİQİYƏ ÖLÇÜLMÜŞDÜ

**İslam Səfərli Azərbaycan poeziyasında həm də Naxçıvan şeir silsiləsinin görkəmli yaradıcısı kimi tanınıb. Şairin şeirlərində bu qədim yurdun ecazkarlığı özünəməxsus poetik dillə təsvir olunub. Hətta şairin "Naxçıvanım" şeirini Azərbaycan poeziyasının "Naxçıvannamə"si adlandırırlar.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bütün ölkə tək onun poeziyasını, dramaturgiyasını deyil, sözlərinə yazılmış mahnıları da sevirdi. O mahnılar ki, bu gün də böyük şövq və zövqlə səsləndirilir - konsert proqramlarında, radio dalğalarında, məclislərdə, ziyafətlərdə...

Onun şeirləri musiqiyə ölçülmüşdü. Mahnı müəllifləri iddia edirdilər: İslam Səfərli mahnı poeziyasını əsl poeziya səviyyəsinə ilk çatdıranlardan biridir. "Ana", "Bir könül sındırmışam", "Bakı, sabahın xeyir", "Buludlar", "Ağ şanı, qara şanı", "Gəncliyimi gəzirəm", "Qonaq gəl bizə", "Ay öpüşən dalğalar", "Nə vaxta qaldı" və s. mahnıları kim eşitməyib? Dodaqdan qəlbə süzülən bu nəğmələr kimlərə könül xoşluğu bəxş etməyib, ruhunu ovutmayıb? Bu mahnıların hər birinin arxasında şairin özü qədər məşhur və sevimli bəstəkarların imzası var: Cahangir Cahangirov, Səid Rüstəmov, Tofiq Quliyev, Ramiz Mustafayev, Emin Sabitoğlu, Ramiz Mirişli, Nəriman Məmmədov... Onlar İslam Səfərlinin poeziyasından ilhamlanıblar.

## 51 İLLİK ÖMRÜN HEKAYƏSİ

12 fevral İslam Səfərlinin doğum günüdür. Görkəmli şair-dramaturq cəmi 51 il ömür sürüb. Amma bu qısa ömrün səhifələrinə tək Azərbaycan poeziyasına və dramaturgiyasına bəxş etdiyi əsərləri deyil, həmçinin İkinci Dünya müharibəsində könüllü iştirakı da, ictimai fəaliyyəti də sığıb.

Müharibə dəhşətlərinin yaradıcılığında yer alması da təsadüfi olmayıb. O, Naxçıvanın Babək rayonunun Şəkərabad kəndində orta məktəbi bitirdikdən sonra könüllü cəbhəyə yollanıb. Sonradan poema və şeirlərində davanın ağrı-acılarından yazıb, vətənpərvərliyi, qəhrəmanlığı vəsf edib.

İslam Səfərli şair kimi tanınsa da, qələmini ədəbiyyatın digər janrlarında da uğurla sınayıb: oçerk, novella, libretto, kinossenari, məqalələr yazıb. Dramaturq kimi də böyük uğurlar qazanıb. Həmçinin tərcüməçilik fəaliyyəti ilə məşğul olub. A.S.Puşkin, M.Svetlov, S.Marşak, K.Koladze, Y.Dolmatovski kimi tanınmış klassiklərin yaradıcılığının Azərbaycan oxucuları tərəfindən sevilməsində böyük rolu olub.

Şairin işıq üzü görən 18 kitabı isə poeziyasevərlərin masaüstü kitabına çevrilib.

## AZƏRBAYCAN ŞEİRİNİN "NAXÇIVANNAMƏ"Sİ

İslam Səfərli Azərbaycan poeziyasında həm də Naxçıvan şeir silsiləsinin görkəmli yaradıcısı kimi tanınıb. Şairin doğulub boya-başa çatdığı torpaq haqqında yazdığı şeirlərində bu qədim yurdun ecazkarlığı özünəməxsus poetik dillə təsvir olunub. Hətta şairin "Naxçıvanım" şeirini Azərbaycan şeirinin "Naxçıvannamə"si adlandırırlar. "İslam Səfərli anadan olduğu, böyüyüb boya-başa çatdığı yerləri özünə xas olan səmimiyyət və istedadla qələmə alır, oxucularda bu yerlərə maraq oyadır. Bu şeirləri oxuyan adam sanki Naxçıvanı seyrə çıxır. Şair Naxçıvanın "Gəlin daşı"nı, "Batabat"ını, "Xal-xal meşəsi"ni, gecə-gündüz Vətəni qoruyan sərhədçinin düşüncələrini tərənnüm edir", - deyə Xalq şairi Məmməd Rahim heyranlığını gizlətmirdi.

> *"İslam Səfərli əsil nəğməkar şairdir. Onun şeirlərinin içində böyük bir musiqi var. Hər şairin şeirləri musiqili səslənmir."*

## BÖYÜK HÖRMƏT SAHİBİ

Şairi tanıyanlar, onunla ünsiyyətdə olanlar isə bulaq kimi çağlayan şeirlərinin məhz İslam Səfərli kimi bir şairin qələmindən süzülə biləcəyini deyirlər.

Xalq şairi Nəriman Həsənzadə İslam Səfərli ilə qonşuluqda yaşayıb: "Biz Hüsü Hacıyev küçəsindəki Yazıçılar Evində qonşu idik. İslam çox gözəl insan idi. Əlfi Qasımovla möhkəm dost idilər. Onların dostluğu bizə də sirayət edirdi. Biz onlardan sədaqətin, vəfanın nə demək olduğunu öyrənirdik. Yadımdadır, o müharibədən qayıtmışdı. Bu barədə xatirələrini tez-tez danışırdı. Çox mehriban, istiqanlı insan olmaqla bərabər, gözəl şair və sevilən nəğmələr müəllifi idi. Onun şeirlərinə çox mahnılar yazılırdı. Mənim İslam Səfərliyə xüsusi rəğbətim vardı. O, böyük hörmət sahibi idi".

## "HANI MƏNƏ OXŞAYAN O QARA OĞLAN?"

Filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli xatırlayır: "İslam Səfərli vəfat edəndə mən kənddə müəllim işləyirdim. Mən onun ailəsi ilə tanışam. İslam Səfərlinin yaradıcılığı haqqında yazmışam. Qardaşı onun kitabları çıxanda ön söz yazmağımı istəyirdi. İslam Səfərlinin özünəməxsus yaradıcılıq siması vardı. O, müharibə görüb, kəşfiyyatçı olub, qayıdandan sonra yaradıcılığını uğurla davam etdirib".

V.Yusifli mərhum şair haqqında dostu Əlfi Qasımovun xatirəsini danışır: "İslam Səfərli tələbə olanda Səməd Vurğunun tələbələrlə görüşü keçirilib. Bir neçə nəfər çıxış edəndən sonra Səməd Vurğun "Hanı mənə oxşayan o qara oğlan, gəlsin şeir oxusun" deyə İslam Səfərlini çağırıb: "Yazıçılar İttifaqında keçən "Gənclər günü"ndə bir şeir oxudun ha, indi oxuya bilərsənmi onu?" - deyə soruşub. İslam xitabət kürsüsünə qalxaraq "Beşik başında" şeirini şövqlə oxuyub. Alqış səsləri salonu titrədib..."



Nəriman Həsənzadə
Vaqif Yusifli

V.Yusiflinin fikrincə, İ.Səfərlinin şeirlərinin içərisindəki musiqi də onu sevdirib: "Mən istənilən bir şairə yanaşanda Füzulidən bir dad, duz axtarıram. Füzulinin şeirlərindəki dad, duz İslamın yaradıcılığında hiss olunur. Bəxtiyar Vahabzadə deyirdi ki, mən hər şairə "nəğməkar şair" deyə bilmərəm, amma İslam Səfərli əsil nəğməkar şairdir. Onun şeirlərinin içində böyük bir musiqi var. Hər şairin şeirləri musiqili səslənmir. "Ceyran gözlü Batabata gəlmişəm", "Sevgilim keçən yerdən bütün şəhər yeriyir", "Qönçələr açılıb, gülür çəmən, düz"... Şairin istənilən bir lirik şeirinə baxsan, orada mahnı və musiqi üçün doğulan bir mətn var. O mahnılar əsrlər keçdikcə yaşayacaq".

## QƏLBLƏRDƏKİ SEVGİ ABİDƏSİ

İslam Səfərli Azərbaycan poeziyasında şeirimizin Xəzər silsiləsini yaradan şair kimi əbədiləşib.

"Pıçıldaşın, ləpələr", "Ay öpüşən dalğalar", "Dəniz" mahnılarında Xəzərin səsi, pıçıltısı "Xəzərim" şerinin ahəngdarlığına qarışır. İndi Xəzərin mavi sularında üzən gəmilərdən birində "İslam Səfərli" adının əbədiləşməsi də haqqını tapıb.

Bu gün Bakının mərkəzi küçələrindən bir də şairin adını daşıyır. Paytaxtda yaşadığı binaya (Həsən Seyidbəyli, 30) onun barelyefi vurulub. Naxçıvanda oxuduğu 1 nömrəli məktəb də İslam Səfərlinin adınadır.

Nə qədər ki, şairin şeirləri səslənir, əsərləri oxunur, sözlərinə yazılan mahnılar eşidilir, qəlblərdə ucaltdığı sevgi abidəsi də daim yaşayacaq...

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
10 FEVRAL ŞƏNBƏ 2024
www.kaspi.az




UEFA Millətlər Liqasında 2023/24 mövsümü yığmamız üçün asan keçməyəcək. Millimiz püşkatmada C Liqasında ən çətin qrupa düşüb. Komandamız qrup birinciliyi uğrunda İsveç, Slovakiya və Estoniya ilə mübarizə aparmalı olacaq.

# ÇƏTİN QRUPDA MAKSİMUM HƏDƏF

Ukraina

UEFA Millətlər Liqasında 2023/24 mövsümünün qrup mərhələsinin püşkü atılıb. Dörd liqanın hər birində komandalar rəqiblərini tanıyıblar. C Liqasında yer alan Azərbaycan millisinin də kimlərlə qarşılaşacağı məlum olub.

Millimiz C Liqasında ən çətin qrupa düşüb. Komandamız qrup birinciliyi uğrunda İsveç, Slovakiya və Estoniya ilə mübarizə aparmalı olacaq. Yığma püşkatmaya ikinci səbətdən qatılsa da, komandaların ümumi gücünə görə ehtimal olunur ki, bu qrupda üçüncülük uğrunda mübarizə aparmalı olacağıq. İsveç ilk səbətdən gələ biləcək ən güclü idi. Ermənistanla onsuz da qarşılaşa bilməyəcəyimizi nəzərə alsaq, Rumıniya və Lüksemburq variantları İsveçə nisbətən daha münasib görünürdü. Elə üçüncü səbətdən də bəxtimizə ən güclü komanda - Slovakiya düşdü. Orada Şimali Makedoniya və Şimali İrlandiya da çox münasib sayılmazdı, amma Kipr variantının olduğunu unutmaq olmaz. Dördüncü səbətdən isə Belarus və Estoniya arzuolunmaz komandalar idi ki, onlardan da ikincisi yığmamıza rəqib oldu. Halbuki Latviya, yaxud Litva/Cəbəllütariq cütünün güclüsü kimi daha arzuolunan variantlar var idi.




## GÜCLÜ SLOVAKLAR

Milli komandaya üçüncü səbətdən rəqib olan Slovakiyanı gizli favorit sayanlar da var. Rəqib FIFA sıralamasında 45-ci pillədədir. Komanda heyətinin dəyərinə görə qrupun ən güclüsüdür. İsveçdən fərqli olaraq Slovakiya yaxşı günlərini yaşayır. Komanda AVRO-2024-ün seçmə mərhələsinə vəsiqə qazanmağı bacarıb. Ümumiyyətlə, qrupda 1-ci yer uğrunda bu iki komandanın mübarizə aparacağı ehtimal edilir. Slovakiya millisinin ümumi dəyəri 165 milyon avrodan çoxdur. Komandanın əsas ulduzu PSJ-də forma geyinən Milan Şkrinyardır. "Napoli"nin yarımmüdafiəçisi Stanislav Lobotka və "Feyenord"un arxa xətt oyunçusu David Hançko digər əsas ulduzlardır.

Azərbaycan və Slovakiya milliləri indiyə qədər rəsmi matçlarda 10 dəfə üz-üzə gəliblər. Bunların 8-də rəqib qələbə qazanıbsa, iki dəfə millimiz sevinib. Son Millətlər Liqasında da bu komandalar eyni qrupda yer alıblar. Azərbaycan millisi 2-ci, Slovakiya 3-cü yeri tutub. Evdə 0:1 uduzan millimiz səfərdə 2:1 üstün olub. Slovaklara 0:3, 1:5 kimi ağır yenilgilər də var.

AZƏRBAYCAN 3:0 İSVEÇ

## Revanş arzulayan skandinavlar

Qrupun ən güclüsü İsveç hazırda FIFA reytinqində 26-cı pillədədir. Komandanın ümumi dəyəri 54 milyon avroya yaxındır. Skandinaviyalıların heyəti əvvəlki illərə nisbətən zəif görünür. Komandanın, demək olar ki, ulduz futbolçusu yoxdur. İsveç yığması hazırda baş məşqçisizdir. AVRO-2024-ün seçmə mərhələsindəki uğursuzluqdan sonra Yanne Andersson postundan gedib.

Azərbaycan və İsveç milliləri indiyə qədər rəsmi oyunlarda 4 dəfə üz-üzə gəliblər. Bunlardan 3-də skandinaviyalılar, 1-də yığmamız qələbə qazanıb. Top fərqində rəqib 9:3 üstündür. Komandalar AVRO-2024-ün seçmə mərhələsində eyni qrupda yer alıblar. İsveçdə baş tutan ilk görüşdə millimiz 0:5 hesabı ilə darmadağın olub. Lakin Bakıdakı ikinci qarşılaşmada Azərbaycan yığması rəqibini 3 cavabsız qolla üstələyib. Emin Mahmudovun meydanın mərkəzindən vurduğu qol isə həmin zaman turun qolu seçilmişdi. Sözügedən qarşılaşmanın üzərindən çox keçməyib. Millətlər Liqası həm də isveçlilər üçün revanş, Azərbaycan yığması üçün həmin qələbənin təsadüfi olmadığını göstərmək fürsəti olacaq.




## ƏN ZƏİF ESTONİYADIR?

Qrupa sonuncu - dördüncü səbətdən qoşulan Estoniyadır. Bu yığma FIFA reytinq sıralamasında 122-ci sıradadır və rəqiblər arasında hazırda 114-cü yerdə qərarlaşan millimizdən geridə qalan yeganə kollektivdir. Estoniya yığmasının ümumi dəyəri 5 milyon avroya yaxındır. Müqayisə üçün qeyd edək ki, Azərbaycan millisində bu rəqəm 16 milyon avrodan bir qədər artıqdır.

Digər rəqiblər kimi Estoniya da yığmamıza tanış komandadır. Millimiz onlarla daha əvvəl 10 dəfə üz-üzə gəlib. Lakin bunlardan cəmi ikisi rəsmi görüşlərdir. Bu il keçiriləcək Avropa çempionatının seçmə mərhələsində rəqib olan kollektivlər Bakıda 1:1 hesablı heç-heçəyə razılaşıblar. Tallindəki qarşılaşmada isə millimiz iki cavabsız qolla üstün olmağı bacarıb. Yekunda Azərbaycan yığması qrupda 4-cü, Estoniya isə sonuncu - 5-ci olub.

Səviyyəcə özündən üstün iki komandanın olduğu qrupda millimizin işi heç də asan olmayacaq. İlkin rəylər Slovakiya və İsveçin qrup liderliyi, Azərbaycanla Estoniyanın 3-cülük uğrunda mübarizə aparacağı istiqamətindədir. Lakin həm İsveç, həm Slovakiya ilə son görüşlərdə qazanılan qələbələr milli komandanın özündən güclülərlə mübarizə aparmaq potensialında olduğunu göstərib.

Millətlər Liqasında qrup oyunları sentyabrda başlayacaq. Ona qədər bu rəqibləri təhlil etmək, onlara qarşı necə effektiv olmağın mümkünlüyünü tapmaq üçün kifayət qədər vaxt var. Lakin daha əvvəl milli komandanın hələ də boş olan baş məşqçi postuna doğru təyinat gerçəkləşməlidir.